**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Müasir dövrdə Azərbaycanın gömrük sistemi və onun təkmilləşdirilməsi istiqamətləri" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Səlimov Teymur Rahib oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 20__-ci il**

# "Müasir dövrdə Azərbaycanın gömrük sistemi və onun təkmilləşdirilməsi istiqamətləri"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060401 - Dünya iqtisadiyyatı**
**İxtisaslaşma: Gömrük işi**
**Qrup: 824**

**Magistrant**
**Səlimov Teymur Rahib oğlu**

____________________

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Cabbarova Kəmalə Sətdar**

____________________

**Proqram rəhbəri**

**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif**

____________________

**Kafedra müdiri**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

____________________

**BAKI – 2021**

## Elm andı

Mən, Səlimov Teymur Rahib oğlu and içirəm ki, "Müasir dövrdə Azərbaycanın gömrük sistemi və onun təkmilləşdirilməsi istiqamətləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN GÖMRÜK SİSTEMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**

**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: Ölkənin daxili bazarının müdafiəsi, iqtisadiyyatın mütəşəkkil tərəqqisi dövlətlərin öhdəliyində dayanan başlıca vəzifələrdən biri hesab edilir. Göstərilənlərin reallaşması məqsədilə sistemin düzgün formada formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. istehlakçıların təhlükəsizliyinin qorunmasına əhəmiyyətli təsirinin öyrənilməsi Həmçinin tədqiqatın aktuallıgını şərtləndirən başlıca amillər gömrük işinin iqtisadi cəhətdən artıma, hüquq pozulmaları əleyhinə mübarizənin həyata keçirilməsinə eləcə də vətəndaşların təhlükəsiz yaşamalarına əhəmiyyətli təsirinin öyrənilməsidir**

**Tədqiqatın məqsədi: Dünya standartlarına müvafiq olan gömrük fəaliyyətin daha inkişaf etdirilməsi, ölkənin iqtisadi təhlükəsizliyin qorunmasında gömrük sisteminin qiymətləndirilməsi və onun prioritet istiqamətlərinin təkmilləşdirilməsi istiqamətində elmi araşdırma aparmaqlan ibarətdir**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqatda istifadə edilən metodlar hədəflərə çatmaq məqsəd ilə bir sıra metodlar, tərz və əməliyyatların cəmi formasında olduğundan, tədqiqiatın aparılması zamanı dialektik, müşahidə, analiz və sintez, müqayisə, statstik, analitik və s. kimi metodlardan istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazasına gömrük sahəsində qəbul edilən həm ölkədaxili, həm də beynəlxalq hüquqi-normativ sənədlər, yerli və xarici mütəfəkkirlərin elmi əsərləri, bu sahədə ədəbiyyat, tədqiqatçıların apardıgı araşdırmalar aiddir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat apararkən qarşılaşdığımız əsas problemlərdən biri pandemiyadır. Pandemiya zamanı tətbiq olunan kilidlənmə kitabxanaların bağlı olması məlumat tapmaqda bəzi çətinliklər yaratmışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Bu nəticələrin elmi-praktiki əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın xarici iqtisadi əlaqələri gömrük işinə əsaslandığından burada iqtisadi əlaqələr genişlənir. Hər ölkənin gömrük sistemində onun təhlükəsizliyi, taarif tənzimlənməsi önəmli olduğundan sistemin təkmilləşdirilməsinə ehtiyac vardır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Dissertasiya işində formalaşmış nəticələr gömrük işinin tənzim olunması, tariflərin müəyyənləşdirilməsi eləcə də sosial-iqtisadi tərəqqiyə effektiv təsirinin dəyərləndirilməsində istifadə edilə bilər.**

***Açar sözlər: gömrük nəzarəti, hüquq-mühafizə fəaliyyəti, gömrük siyasəti***

# AZERBAİJAN'S CUSTOMS SYSTEM İN MODERN TİMES AND DİRECTİONS FOR İTS İMPROVEMENT


## SUMMARY

**The actuality of the subject: One of the main tasks facing states in modern times is the protection of the domestic market and the effective development of foreign economic activity. Proper organization and operation of the country's customs are important for the fulfillment of these tasks. The study of the significant impact of the customs system on economic growth, the fight against organized crime and the protection of the safety of millions of consumers makes the study relevant.**

**Purpose and tasks of the research: Conducts scientific research to improve customs policy in accordance with modern international requirements, assess the customs system to ensure economic security and improve its priorities**

**Used research methods:. Since the methods in the dissertation work as a set of different methods, styles and operations to achieve the objectives of the work, dialectical, observation, analysis and synthesis, comparison, statistical, analytical, etc. are used during the research. methods such as**

**The information base of the research: Tədqiqatın informasiya bazasına həm gömrük sahəsində qəbul edilmiş həm yerli, həm də beynəlxalq hüquqi və normativ sənədlər, yerli və xarici mütəfəkkirlərin elmi əsərləri, bu sahədəki ədəbiyyat, tədqiqatçılar tərəfindən aparılan tədqiqatlar daxildir.**

**Restrictions of research: One of the main problems we face in our research is the pandemic. The locking measures applied during the pandemic and the closure of libraries have made it difficult for us to find information..**

**The novelty and practical results of investigation: The scientific and practical significance of these results is that as Azerbaijan's foreign economic relations are based on customs, economic relations are expanding here. There is a need to improve the customs system of each country, as its security and tariff regulation are important.**

**Scientific-practical significance of results:. The findings and recommendations of the study can be used to regulate customs policy, determine customs tariffs and assess the impact on the socio-economic development of the country.**



***Keywords: customs control, law enforcement activities, customs system***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **BGİ** | Baş Gömrük İdarəsi |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **GM** | Gömrük Məcəlləsi |
| **İİTKM** | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |
| **RAİS** | Risklərin Avtomatlaşdırılmış İdarəetmə Sistemi |
| **SBM** | Sərhəd Buraxılış Məntəqəsi |
| **ÜGT** | Ümumdünya Gömrük Təşkilatı |
| **VAİS** | Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi |
| **YGB** | Yük Gömrük Bəyannaməsi |
| **XİF MN** | Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası |

## MÜNDƏRİCAT

**GİRİŞ............................................................................................................ 8**

**I FƏSİL. AZƏRBAYCANDA GÖMRÜK SİSTEMİNİN FORMALAŞMASININ - HÜQUQI – KONSEPTUAL ƏSASI........................ 11**

1.1. Gömrük işi sferasında dövlət siyasətinin əsas istiqamətləri........................... 11

1.2. Müasir gömrük sisteminin formalaşmasının əsas mərhələləri......................... 15

1.3. Azərbaycan Respublikası gömrük sisteminin tənzimlənməsinin hüquqi-normativ aspektləri................................................................................................ 22

**II FƏSİL. AZƏRBAYCANDA FORMALAŞAN VAHID GÖMRÜK ORQANLARI SİSTEMİNİN FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ...................................................................... 27**

2.1. Azərbaycan Respublikası DGK- təşkilati strukturu........................................ 27

2.2. Gömrük orqanlarının əsas funksiyaları və kompetensiyalarını yerinə yetirilməsi baxımından fəliyyətlərinin təhlili....................................................... 32

**III FƏSIL. AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ..... 58**

3.1. Azərbaycan Respublikası gömrük sistemində baş verən çatışmamazlıqların təhlili................................................................................................................ 58

3.2. Azərbaycan Respublikası gömrük sisteminin tənzimlənməsinin hüquqi-normativ bazasının daha da təkmilləşdirilməsi məsələləri.................................... 63

**NƏTİCƏ VƏ TƏKLİFLƏR......................................................................... 71**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT........................................................... 73**

Cədvəllərin siyahısı............................................................................................ 76

Şəkillərin siyahısı............................................................................................... 76

Diaqramların siyahısı.......................................................................................... 76

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir zamanda hər bir ölkənin qarşısında dayanan başlıca məqsəd milli bazarın müdafiə olunması eləcə də xarici iqtisadi fəaliyyətin mütərəqqi şəkildə təkmilləşdirilməsidir. Bu kimi hədəflərin reallaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının gömrük fəaliyyətinin tam, dürüst, optimal idarəsi olduqca gərəklidir. Burada ölkələr ümumi iqtisadi siyasətinin tərkib elementi sayılmaqda olan gömrük siyasəti tətbiq edirlər. Qeyd edək ki, gömrük işi beynəlxalq ticarətin yaranması eləcə də inkişaf etməsi sayəsində formalaşmışdır

Müstəqillik illərində başqa-başqa dövlətlər ilə ticarət münasibətlərində gömrük fəaliyyətinin məqsədəuyğun şəkildə formalaşması, gömrük sərhədlərinin müdafiə olunması məsələsi respublika üzrə vacib sayılan bir hədəfdir. Göstərilən faktor ölkənin beynəlxalq iqtisadiyyatında əlaqələrinin daha da artıb güclənməsindən asılılıq təşkil edir.

Bundan başqa mallar ilə ticarət anında müyyən zamanlarda əqli mülkiyyət hüquqlarının pozuntusu halları yaranır. Ölkədə gömrük işinin bu kimi vəziyyətlərin qarşısını almaqda rolu yüksəkdir. Belə ki, gömrük sisteminin müasir və dünya təcrübəsinə əsaslanmış qaydada təşkili sayəsində ölkənin daxili bazarına qadağan edilmiş əmtəələrin gətirilməsinin qarşısıı alınır. Respublikada fəaliyyət göstərən bu sahə iqtisadi tərəqqiyə, mütəşəkkil cinayətkarlığa və digər hüquq pozulmaları əlehinə mübarizənin həyata keçirilməsinə eləcə də insanların sağlamlığı və təhlükəsizliyinin müdafiə olunmasına yardım göstərir. Ölkənin gömrük orqanları ənənəvi şəkildə ölkəyə gətirilən və aparılan əmtəələrin maliyyə aspektlərinə ayrıca formada diqqət edirlər. Burada idxal rüsumları milli bazarın müdafiə olunması üçün bir sıra məhsullara qoyulur.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Azərbaycan Respublikasında gömrük işinin efffektiv həyata keçirilməsi, ölkə ekonomisndəki əhəmiyyətinin nəzəri eləcə də təcrübi formada prinspləri araşdırmaçılar vasitəsi ilə elmi cəhətdan araşdırılmış, həmçinin bu kimi yönlərdə mütərəqqi araşdırmalar həyata keçirilmişdir.Burada A.Ş.Şəkərəliyev, C.Q.Nuriyev, A.Ə.Əliyev, Z.A.Şəkərəliyeva, Heydərov K..F. , İ.Mehrəliyev, Ə.Abduləzimov, Məmmədov F., Musayev A.,

Sadıqov M., Kəlbiyev Y., Rzayev Z. eləcə də digər şəxslərin yaratdığı əsərlər əhəmiyyətlidir. Ona görə də gömrük işi və onun iqtisadi səmərəliliyinin artırılması məcmu qaydada araşdırlması, bir sıra məsələlərin minumumlaşdırılmasına elmi tələblərə cavab verən tövsiyə xaraketrli məlumatların formalaşdırılması vaciblik kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın məqsədi beynəlxalq tələblərə uyğun iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük sisteminin qiymətləndirilməsi və onun prioritet istiqamətlərinin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən araşdırma-təqdiqat həyata keçirməkdir. Bunun üçün qarşıda quran vəzifələr aşagıdakılardır :

- gömrük sisteminin formalaşmasının-hüquqı –konseptual bazasını öyrənmək
- Azərbaycanda formalaşan vahid gömrük oqanları sisteminin fəaliyyətinin qiymətləndirilmək
- ölkədə gömrük sısteminin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirmək

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti müasir dövrdə Azərbaycan Respublikasında gömrük sistemi və onun təkmilləşdirilməsi istiqamətləri eləcə də bununla bağlı olan bir sıra müvafiq proseslər sayılır. Predmeti dedikdə isə gömrük sistemi ilə bağlı olan müasir nəzəri fikirlər, gömrük-tarif fəaliyyətinin tənzim olunmasında xarici ölkələrin praktik dəyərlərinin mənimsənilməsi başa düşülür.

**Tədqiqat metodları:** Tədqiqat müəyyən araşdırma üsullarından yararlanmaqla hazır edilmişdir. Qeyd edilən metodlara, müqayisə, analiz və sintez, statstik, analitik, dialektik və başqalarını daxil etmək mümükündür. Bu metodlar tədqiqat işinin müəyyənləşdirdiyi hədəflərə çatmaq üçün bir sıra metodlar, tərz eləcə də əməliyyatların cəmi şəklində özünü göstərəcək.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat metodlarının tətbiqi üçün informasiya bazasını Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (DGK), Vergilər Nazirliyi (VN), Dövlət Statistika Komitəsinin, Maliyyə Nazirliyi, və ölkənin bir sıra hüquqi-normativ sənədlərindən, ölkə Prezidenti İlham Əliyevin bir

sıra sərəncamlarından, yararlanmışdır. Həmçinin müəyyən idarələrin çap etdiyi bülletenlər, elmi-məcmuələr, eləcə də mətbuat orqanlarının, internet vasitəsilə əldə olunan resurs informasiyaları təşkil edir.

**Tədqiqatın mədudiyyətləri:**Tədqiqat apararkən qarşılaşdığımız əsas problemlərdən biri pandemiyadır. Pandemiya zamanı tətbiq olunan kilidlənmə tədbirləri kitabxanaların bağlı olması məlumat tapmaqda bizə bəzi çətinliklər yaratmışdır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat nəticəsində əldə edilən elmi yeniliklər aşagıdakılardır:

- Gömrük sisteminin formalaşmasının-hüquqı –konseptual əsasını təşkil edən elmi nəzəri fikirlər öyrənilmiş və ümumiləşdirilmişdir;
- Azərbaycanın vahid gömrük oqanları sisteminin fəaliyyəti yerinə yetirdikləri kompetensiyaları baxımından təhlili aparılmış;
- Gömrük sistemində baş verən çatışmamazlıqların yaranma səbəbləri araşdırılmış və aradan qaldırılması yolları göstərilmişdir;
- Ölkədə gömrük sıstemiin təkmilləşdirilməsinin əsas istiqamətləri barədə tövsiyyə xaraktrli təkliflər verilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın aparılması ilə əlaqədar olaraq bir sıra nəticələr əldə edilmişdir. Bu nəticələrin elmi-praktiki əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın xarici iqtisadi əlaqələri gömrük sisteminin fəaliyyəti ilə bahəm genişlənir. Hər bir ölkənin gömrük sistemində onun təhlükəsizliyi, rüsumu və taarif tənzimlənməsi də önəmli olduğundan bu sistemin təkmilləşdirilməsinə ehtiyac duyulur. Buna görə də gömrük işinin təkmilləşdirilməsi və gömrük proseslərinin keyfiyyətini təmin etmək önəmli yer tutur. Tədqiqatın nəticələri elmi məqalələrdə və elmi praktik konfranslarda dərc edilmişdir. Bununla yanaşı tədqiqatın nəticələrindən “Gömrük işi”, “Gömrük hüquqi” fənnlərinin tədrisində, kurs işi, semestr layihələri, buraxılış işlərinin yerinə yetirilməsində istifadə edilə bilər.

# I FƏSİL. AZƏRBAYCANDA GÖMRÜK SİSTEMİNİN FORMALAŞMASININ – HÜQUQİ – KONSEPTUAL ƏSASI

## 1.1. Gömrük işi sferasında dövlət siyasətinin əsas istiqamətləri

Azərbaycan Respublikasında əsas qanunverici aktlardan biri sayılan Gömrük Məcəlləsinin (GM) ikinci maddəsinə görə, gömrük işi dedikdə, gömrük hüdudundan aparılan əmtəə eləcə də nəqliyyat barədə gömrük-tarif tənzimlənməsi, bundan əlavə ticarət iştirakçıları vasitəsi ilə normativ-hüquqi aktlarla müəyyən olunmuş bir sıra məhdudluqlara əməl edilməsini təmin edən vasitələr cəmi, həmçinin gömrük siyasətinin reallaşdırılmasının başqa resursları başa düşülür. Gömrük tənzimlənməsi anlayışından danışdıqda isə deyə bilərik ki, gömrük sərhədindən məhsulları aparmaq imtiyazından yaralanan fərdlərin tabe olmalı olduğu normaların müəyyənləşdirilməsidir. Onu da qeyd edək ki, gömrük tənzimlənməsi normativ aktlara eləcə də xarici ticarətin dövlət tənzim etməsinə aid olan hüquqi aktlara, dünya səviyyəsi standartlarına cavab verən sazişlərə müvafiq olaraq reallaşdırılır.. Bu kiçik anlayış gömrük işinin məğzinii tamlıqda açmasa da, onu hərtərəfli səciyyələndirir.

Gömrük işinin tərkibinə bundan əlavə gömrük statistikası və Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası (XİF MN), hüquqi-normativ qanunların pozulması və gömrük fəaliyyəti sferasındakı başqa cinayətlər əleyhinə, qanunvericiliyinin pozulması ilə əlaqəli fəaliyyətin icraata götürməsi daxil edilir (Şəkərəliyev A.Ş., Nuriyev C.Q, Əliyev A.Ə., Şəkərəliyeva Z.A. 2018).

Azərbaycan Respublikasının məkanı vahid gömrük məkannını formalaşdırır.Buraya ölkənin quru ərazisi, daxili su hövzələri, Xəzər dənizinin Azərbaycan Respublikasına aid sahəsi və üzərindəki hava ərazisi aiddir. Gömrük məkanının sərhədləri, eləcə də, AİZ-ın perimetrləri gömrük sərhədi sayılır.Gömrük sərhədi anlayışı, gömrük məkanın perimetri yəni, bu məkanın konturlarını hüdudlandıran xətt deməkdir. GM-nin 3-cü maddəsinə əsasən, bu zonaların perimetrləri istisna olunmaqla, gömrük hüdudu ölkəmizin dövlət sərhədi uyğundur.

Bundan başqa gömrük işində 2 məfhum ortaya çıxır. Milli eləcə də xarici gömrük sərhədi. Xarici gömrük sərhədi ölkədə gömrük məkanının kənar hədlərini əhatə edir.

Daxili gömrük sərhədi isə gömrük məkanın daha içərilərində formalaşdırılır. Daxili gömrük sərhədi vacibliyi, azad gömrük zonası və azad gömrük anbarı rejimlərinin tətbiqi olunduğu vaxt meydana çıxır. Hüquqi cəhətdən daxili gömrük sərhədi xarici sərhədlə yanaşı tutulur. Sərbəst zonanın məkanı sərhəd zonası kimi sayılır və oraya giriş ayrıca nəzarət-buraxılış məntəqələrindən və icazə sənədləri tətbiq olunmaqla icazə verilir (Gömrük Məcəlləsi maddə 3).

Dövlətin gömrük xidməti respublikamızın bazar iqtisadiyyatına yönəldilmiş prinsiplərlə təşkil olunmuşdur.

1. Respublikanın gömrük siyasətinin aparılması balanslaşdırılmış eləcə də gücləndirilmiş iqtisadi əsalara söykənən siyasətdən o cümlədən gömrüyün daha da müasirləşdirilməsi dərəcəsindən asılılıq təşkil edir. Bu isə ölkənin gələcək tərəqqi yollarının müəyyənləşdirilməsində vacib önəmlilik kəsb edir. Dövlətin yeni metodlarla həyata keçirilən gömrük fəaliyyəti işi dövlətin xarici ticarət dövriyyəsinin gömrük hüdudundan əmtəə və nəqliyyat vasitələrinin müvafiq gömrük prosedurları müəyyənləşdirilməsi yolu ilə aparılmasının hökümət tənzimlənməsi üzrə məqsədəuyğun fəaliyyət cəhətlərinin müəyyən olunmasına xidmət göstərir.

2. Gömrük siyasətinin təşkili və reallaşdırılmasında iştirak edəcək institutların toplusu və onun aparılması üsulları, hüququ dövlət orqanları tərəfdən gömrük tənzimlənməsi üsullarının istifadə norması gömrük siyasət aləti məfhumunu yaradır.

3. Dövlətin gömrük fəaliyyəti respublika iqtisadiyyatının ölkə tənzimetmə sisteminin başlıca daxili elementlərindən biri sayılır.

Ölkələr bu kimi siyasətlərini müəyyənləşdirərkən yerləşdiyi coğrafi mövqeyi, dünya iqtisadiyyatında rolu, beynəlxalq təşkilatlara üzvlüyü, qonşuluq əlaqələrinin dərəcəsi kimi əlamətlər əsas götürülür. Ölkələr gömrük siyasətini dəqiq və düzgün aparmaqla özünə aid olan idarə və təşkilatları digər ölkələrin kənar təsirlərindən müdafiə edir. Həmçinin, öz yerli məhsullarını dünya bazarına da aparmaq kimi şans

qazanır (Aslanov H. 2018). Müasir zamanda gömrük siyasətinin başlıca hədəfləri aşağıdakılrdır:

I. gömrük nəzarəti vasitələrindən məqsədəuyğun istifadənin təmin olunması;

II. bazarın müdafiəsi üçün ticarət siyasəti məqsədlərinin reallaşdırılmasında iştirak etmək;

III. milli iqtisadi inkişafın daha da stimullaşdırılması;

IV. gömrük orqanlarında struktur dəyişikliklərinin həyata keçirilməsinə kömək;

Ölkəmizdə həyata keçirilməkdə olan gömrük siyasətinin başlıca hissəsini, xarici ticarətin hökümət tənzim etməsinin bir sıra əlamətləri təşkil edir:

- dövlətin xarici siyasətinin tərkib elementi sayılan ümümlik təşkil edən xarici ticarət siyasəti;

- xarici ticarət əlaqələrinin tənzim etmə sistemi eləcə də aparılmasına nəzarət etmək;

- ölkədə təkmilləşdirilmiş valyuta müayinəsi siyasəti;

- ölkədə xarici ticarət münasibətlərinin dövlət tənzim etməsində iqtisadi-tarif metodlara imtiyaz verilməsi;

- ölkədə xarici iqtisadi - ticarət fəaliyyəti iştirakçılarının eynihüquqlu olması və ayrı-seçkiliyə yol verilməsinin qarşısı alnması;

- ölkənin eləcə də onun bir sıra idarələrinin həyata keçirilən xarici ticarət fəaliyyətinə lazımsız formada qarışması nəticəsində iştirakçılara, eləcə də bütövlükdə ölkə iqtisadiyyatına zərər vurulmasının istisna olunması (Quliyev E., Mehrəliyev İ. 2012).

Gömrük siyasəti həmçinin ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına xidmət etməlidir. İqtisadi təhlükəsizlik bütünlükdə iqtisadiyyatın dövlətin sosial, siyasi, qorunma qabiliyyətinin və qabaqcıl tərəqqisinin kifayət edəcək dərəcəsini təmin edə bilən vəziyyətini, balanslaşdırma məsələlərinin həll yollarını, mümkün olan xarici eləcə də, daxili təhlükələrə, onun iqtisadi maraqlarının kənar əlamətlərdən asılı olmaması və yetərli qədər ziyandan müdafiə qabiliyyətini nəzərdə tutur.

Dövlətin iqtisadi inkişafı ilə müəyyən olunan iqtisadi təhlükəsizliyin lazımi formada təminatı kənardan heç bir maliyyə almadan azad iqtisadi siyasət, xüsusilə də müstəqil iri iqtisadi tədbirlər reallaşdırmaq, respublikada fəaliyyət aparan iqtisadi normativlərin davamlılığını qorumaq, iqtisadiyyatdakı kəskin geosiyasi dəyişikliklərə anında doğru reaksiya vermək və itirilmiş balansı tezliklə bərpa etmək, hökümətin iqtisadi mənafelərinə mənfi təsir edə biləcək qonşu ölkələrdə baş verən tənzimlənməyən iqtisadi durumlarda onlara kömək göstərmək üçün imkan yaradır.

Gömrük siyasəti, onun aparılması üçün əsas zəmin sayılmaqda olan ölkənin gömrük xidmətinin müasir fəaliyyətinə əsasən həyata keçirilir. Ölkə ərazisində gömrük tənzim etməsinin yalnız gömrük orqanlarının fəaliyyəti ilə bərabər hala salınmaq düzgün deyil. Belə ki, hökümətin gömrük siyasətinin reallaşdırıması digər proseslərlə müqayisədə mürəkkəb və qarışıq formalı bir prosesdir. Deyə bilərik ki, idarəetmənin qolları sayılan qanunvericilik, icra və məhkəmə hakimiyyətinin, eləcə də burada maraqlı olan sahibkarlıq subyektərinin birbaşa iştirakı ilə reallaşacaq məsələdir (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. 2015).

Yerli bazarın müdafiəsi və daxili iqtisadiyyatın inkişafına səmərəli şəraitin yaradılması üçün gömrük siyasətinin himayədarlıq və ya proteksionizm, sərbəst ticarət və ya fritredizm metodlarındandaha çox istifadə olunur:

Himayədarlıq və ya proteksionist gömrük siyasəti daxili istehsalın inkişafı üçün daha yaxşı şəraitt yaradılmasına istiqamətlənmişdir.. Bu siyasət idxal olunan məhsullara gömrük, vergi və rüsumların tətbiqinin daha yüksək dərəcəsini tətbiq etməklə əldə olunur. Gömrük rüsumları ilə bərabər qeyri-tarif üsullarından, ixdal məhdudiyyətlərindən də geniş formada istifadə edilir. ÜTT normaları bəzən ixrac və idxal məhdudiyyətlərini tətbiq etməyi də nəzərdə tutur. Müəyyən ölkələr vardır ki onlar çoxistiqamətli ticarət müqaviləsi sayılan Ümumdünya Ticarət Təşkilatının nümayəndəsi sayılırlar. Ancaq bir sıra ölkələr himayədarlıq siyasətindən yararlanırlar. Burada gətirilən əmtəələrə iqtisadi- tarif üsulları, ölkə ərazisindən aparılan mallara subsidiyalar qoyulur. Ölkələr o cümlədən,təbii resursların ixracına məhdudiyyət tətbiq etməklə sərbəst ticarəti məhdudlaşdıra bilərlər. Azad ticarət dedikdə isə vergi və rüsumların ən aşağı dərəcəsi tətbiq edilir eləcə də, yerli bazara

kənar əmtəələrin nisbətən daha çox cəlb olunmasına şövq edir. Gömrük siyasətinin aparılmasının başlıca üsulları - gömrük ödənişləri, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti əməliyyatları, konkret icazə və kvotalaşdırılma praktikası ilə əlaqəli olan bir sıra gömrük məhdudiyyətləridir (İbrahimov T. 2017).

### 1.2. Müasir gömrük sisteminin formalaşmasının əsas mərhələləri

XX-əsrin sonu cəmiyyətin məqsədyönlü inkişafının obyektiv yekunu formasında sosializm sistemində böhran baş verməsi, sovet imperiyasının süqutu yeni müstəqil ölkələrin formalaşmasına səbəb oldu. Bu tarixi şansdan maksimum faydalanmaq üçün hər bir ölkə siyasi azadlğını qaranti ola biləcək mütəşəkkil iqtisadiyyat təşkil etməli idi.

Ölkə müstəqilliyini formaşadıran Azərbaycan Respublikasının qarşısında aşağıdakı bir sıra mühüm vəzifələr dayanırdı:

- milli dövlətçilik müdəalarının təkmilləşdirilməsi;
- demokratik,müasir, hüquqi və dünyəvi cəmiyyət təşkili;
- respublikanın ərazi bütövlüyünün tam təmin olunması;
- müstəqil dövlətin həyati tələblərinə cavab verən lazmi-iqtisadi sosial islahatlar, dəyişikliklər həyata keçirilməsi;
- insanların rifah səviyyəsini daha da yaxşılaşdırılması;
- beynəlxalq iqtisadi inteqrasiya və qloballaşma prosesdurlarından dövlətin milli mənafelərinə müvafiq şəkildə yaralanmaq (Nuriyev C.Q.2007).

SSRİ süqutundan sonra azadlıq əldə edən ölkələr xarici iqtisadi-ticarət fəaliyyətinin başlıca istiqamətlərini, həmçinin, gömrük, maliyyə siyasətini təşkil etməyə başladı. Azərbaycan Respublikasının beynəlxalq iqtisadi əlaqələr sistemində rolunun ümummilli maraqlara müvafiq olaraq uyğunlaşdırılması, eləcə də milli dövlətçilik ənənələrinin daha da gücləndirilməsi, siyasi o cümlədən milli azdlığı, ərazi bütünlüyü və ölkə hüdudlarının toxunulmazlığının təminatı kimi əsaslı məsələlər reallaşdırılmalı idi. Bu zaman ölkəmiz dünya iqtisadi birliyi tərkibində olan ölkələr ilə yeni qarşılıqlı iqtisadi münasibətlər, tərəfdaş olan dövlətlər və

beynəlxalq təşkilatlarla eynirhüquqlu əsasda əməkdaşlıq etməli idi. Respublikanın xarici iqtisadi fəaliyyətində formalaşan mənfi cəhətllər bunlardır:

- ölkə ərazisində istehsalın həqiqi səviyyəsinin azalması və bunun qarşılığında xarici ticarət dövriyyəsinin aşağı düşməsi;

- ölkədə daxili bazarda olan malların dünya bazarında digər mallar ilə rəqabətdə uduzması (Şəkərəliyev A.Ş., Nuriyev C.Q, Əliyev A.Ə., Şəkərəliyeva Z.A 2018).

Hökümətin eləcə də istehlakçıların iqtisadi təhlükəsizliyi və yerli bazarının müdafiə olunmasında, o cümlədən onun dünya iqtisadi və ticarət münasibətlərinin artırılmasında əhəmiyyətli rol oynayan ölkənin müasir standartlara uyğun gömrük siyasəti H.Əliyev tərəfindən müəyyənləşdirilən siyasətə müvafiq təşkil edilmiş və getdikcə yüksələrək ölkə azadlığının başlıca rəmzlərindən biri kimi genişfunksiyalı kompleksə dönmüşdür. H.Əliyevin gömrük siyasəti sahəsindəki fəaliyyətini iki dövrə ayırmaq olar:

1. Sovet dönəmi (1969-1987);
2. Müstəqillik illəri (1993-2003).

Azərbaycanın müstəqil dövlətə çevrilməsi, bütün sferalarda həyata keçirilən müasir,hüquqi və iqtisadi islahatlar ölkəmizin tərəqqisinə təkan verdi. 1991-1993-cü illərdə dövlətin ictimai-siyasi həyatında davam edən qeyri-sabit duruma Heydər Əliyevin yenidən hakimiyyətə dönüşü ilə son verildi. Elə onun başçılığı altında ölkə quruculuğunun bütün sahələrində iqtisadi tərəqqiyə və sosial-siyasi böhranın aradan qaldırılmasına xidmət edən genişölçülü islahatlar aparıldı.

Müstəqillikdən sonra dövlət quruculuğunda təxirəsalınmaz vəzifələrdən biri də dövlətin iqtisadi mənafelərinin müdafiəsi həmçinin, idxal və ixrac kimi fəaliyyətlərə hökümət nəzarət sisteminin formalaşdırılması idi. 1992-ci il yanvar ayının 30-da ölkənin suverenliyinin vacib atributlarınlan biri olan Dövlət Gömrük Komitəsi (DGK) təşkil edildi. Amma o zaman çətin ictimai-siyasi durum gömrük orqanlarının tam formalaşmasına imkan vermədi. Bu tarixi şəraitdə H.Əliyevin 1992-ci il 24 fevral tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikası DGK təşklil və real milli gömrük xidmətinin yaradılması sahəsində aparılan tədbirlər isə nəinki Naxçıvanı

düşdüyü blokada durumundan çıxarmaq və daxili iqtisadiyyatı inkişafı üçün də şərait formalaşdırdı.

Azərbaycanın önəmli uğurlarından sayılan ölkə prezidenti H.Əliyevin təşəbbüsü ilə 1994-cü il 20 sentyabrda imzalanan “Əsrin müqaviləsi” oldu. Aparılan aktiv xarici siyasət beynəlxalq aləmdə ölkəmizin nüfuzunun artmasına, bir sıra dövlətlərlə əhəmiyyətli dərəcədə münasibətlərin qurulmasına, dövlətin siyasi imicinin dəyişməsinə, və ölkəyə səmərəli investisiya axınına səbəb olmuşdur.

Respublika büdcə sisteminin optimal qaydada formalaşmasında Komitənin rolu əhəmiyyətli şəkildə artdı, gömrük fəaliyyətinin iqtisadi-statistik göstəriciləri o cümlədən, maddi-texiki vəsaitləri, məlumat-informasiya təchizatı gücləndirildi, ölkə gömrüyünün beynəlxalq təşkilatlarla bağlılığının daha da artırılması və praktik mübadiləsi həyata keçirilməsi sahəsində cəhdlər geniş xarakter almışdır (Heydərov K.F. 2004 ).

Müstəqil Azərbaycanda gömrük işinin yaradılması dönəmi 1992-1994-cü illər, 1995-2000-ci illəri əhatə edən dövr o cümlədən 2001-ci ildən başlayan və hazırki dövrü əhatə edən daha böyük tərəqqi dönəmi olmaqla 3 əsas mərhələyə ayrılır. Əvvəla birinci dönəmdə, ölkədə gömrük orqanları təşkil edilsə də, milli mənafelərə xidmət edən hökümət strukturu kimi olaraq bir sıra səlahiyyətlərini reallaşdıra bilmədi. İkinci dönəmdə gömrük fəaliyyətinin yenidən formalaşması, maddi-texniki və qanunvericilik bazasının gücləndirilməsi, büdcə gəlirlərinin daha da çoxaldılması, ölkə gömrük orqanlarının kadr-ehtiyat imkanlarının daha da möhkəmləndirilməsi, bundan əlavə xidmət mədəniyyətinin artırılması eləcə də ölkənin beynəlxalq təşkilatlar ilə davamlı münasibətlərin qurulması daha da artdı. Bununla belə müxtəlif qanunverici aktlar əsasında formalaşan gömrük işi qeyd olunan mərhələnin başlıca sayılan xüsusiyyəti idi. Növbəti mərhələdə respublika gömrük orqanlarının tərəqqisi etməsində üçüncü dönəm yəni, 2001-ci ildə müasir tarif sisteminin qəbulu ilə gömrük işində çağdaş mərhələnin başlanğıcını qoydu. Bu mərhələ dünya praktikasının öyrənilməsi, inkişaf etmiş dövlətlərin gömrük xidmətlərilə möhkəm münasibətlərin qurulması, respublikamızda gömrük

fəaliyyətinin əsaslı şəkildə yaxşılaşdırılması ilə müşayiət edilən keyfiyyətcə müasir bir mərhələdir.

Bununla belə ölkə ərazisində xarici ticarət əlaqələrinin tənzimlənməsinə aid olaraq fərmanlar, Nazirlər Kabinetinin qərarları, o cümlədən, başqa qanunverici aktlar ölkəyə mal gətirilməsi və aparılması əməliyyatlarına nəzarətin inkişaf etməsi sahəsində əsaslı rol oynasa da, əsas qanunverici sənəd olan Gömrük Məcəlləsinin təsdiqi, 1995-ci il iyun ayının 20-də imzalanan "Gömrük tarifi haqqında" qanun ölkənin gömrük fəaliyyətinin normativ-hüquqi bazasını daha da gücləndirdi. NK-nin 1998-ci il yanvar ayının 12-i "AR-nın gömrük məkanına gətirilmiş və bu məkandan aparılmış məhsulların gömrük qiymətləndirilməsi sisteminin tətbiq edilməsi Qaydaları" adlı sənəd təsdiq olundu. gömrük tarifi eləcə də valyuta tənzimlənməsi barəsində normalar gömrük orqanlarına valyuta nəzarətini aparmaq hüququnu verdi (http://anl.az/down/meqale/azerbaycan/2010/may/118515.htm 2010).

Ölkənin gömrük təşkilatının fəaliyyətlərini dünya standartlarına inteqrasiya edən əsas sənədlərdən biri də ölkəmizin 1999-cu il dekabr ayının əvvəli tarixində təsdiqlənmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə" idi. Bundan əlavə ölkənin gömrük idarələrinə hüquq-mühafizə kimi hüququnun verilməsi qaçaqmalçılığın eləcə də başqa pozuntuların qarşısının alınmasında bir sıra səmərəli tədbirləri reallaşdırmağa şərait yaratdı.

Bu dönəmdə DGK-nin beynəlxalq münasibətləri artmış, ölkə ərazisində müasir beynəlxalq iqtisadi inteqrasiyanın təkmilləşdirilməsi geniş vüsət almışdır. Eləcə də, DGK-nin 1999-cu il iyun ayının 24-ü tarxində Ümumdünya Gömrük Təşkilatın Maliyyə Komitəsinin üzvü olaraq seçilməsi, 2000-ci il iyul ayının 6-da isə Ümumdünya Gömrük Təşkilatın başlıca idarələrindən biri siyasi komissiyada təmsil olunması ölkəmizin gömrükçülərinə dünya praktikasından faydalanmağa daha da çox imkan verdi. Qeyd olunan təşkilata nümayəndə olan dövlətlərin burada gömrük xidmətləri ilə formalaşdıran işgüzar münasibətlər yüksək dərəcədə uğurlu nəticələr verdi. Bunun bariz nümunəsi 2003-cü il sentyabrın ayının 30-da Bakıda Ümumdünya Gömrük Təşkilatın Regional Tədris Mərkəzi açıldı (Aslanov H. 2018).

Neft strategiyasının həyata keçirilməsində də gömrük xidmətinin məqsədləri formalaşdırıldı. Həmçinin burada Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə aid məhsulların gömrük rəsmiləşdirilmə fəaliyyətini tezləşdirmək eləcə də nəzarətin asanlaşdırması  məqsədilə "Sahil", "Dübəndi", "Liman", "Yeni sahil" gömrük postları yaradıldı.

Gömrük işinin önəmli olan funksiyalarından biri də narkotik eləcə də psixotrop tərkibli maddələrin qeyri-qanuni sayılan dövriyyəsi əlehinə mübarizədir. Azərbaycan ərazisindən bu maddələrin tranzit daşınmalarının qarşısını almaq üçün xüsusi işlər görülür, yeni tipli qurğular quraşdırılır, bundan əlavə  kinoloji xidmətin yeni sayılan imkanlarından faydalanılır. Bundan əlavə 1997-ci ildən ölkə məkanından narkotik tərkibli maddələrin gizli yolla aparılması və gətirilməsinə mübarizədə Birləşmiş Millətlər Təşkilatı eləcə də Avropa İttifaqının proqramları, bundan sonra 2001-ci ildən bu idarələrin ölkəmizlə razılaşdırılan başlıca sazişə görə, "Cənubi Qafqazda Narkotiklərə Nəzarət Regional Yardım Proqramı"nın reallaşdırılmasında başqa aidiyyəti hüquq-mühafizə orqanları ilə bərabər, Dövlət Gömrük Komitəsi aktiv  fəaliyyət göstərir (Rzayev E. 2019).

Prezident H.Əliyevdən sonra bu yolun müvəffəq davamçısı, onun oğlu İlham Əliyev ölkə gömrük fəaliyətinin mütərəqqi şəkildə inkişaf etdirilməsini hər zaman diqqət mərkəzində saxlayır. 2004-cü il mayda Brüsseldə Ümumdünya Gömrük Təşkilatı ilə DGK arasında niyyət adlanan protokol sazişinin imzalanması, daha sonra 2005-ci ilin mayında  Azərbaycan Respublikasında Ümumdünya Gömrük Sərgisi eləcə də forumunun, o cümlədən, "H.Əliyev və respublika gömrük işinin inkişafı" mövzusunda olan müasir beynəlxalq simpoziumun, sonda 2006-cı il fevralda Ümumdünya Gömrük Təşkilatın Avropa Regionu Gömrük Xidməti başçılarının olduğu konfransının aparılması hökümət başçılığının göstərilən sahəyə marağının açıq nümayişi idi. Respublikamızda gömrük qanunvericiliyinin inkişaf etdirilməsi, həmçinin, gömrük işi sahəsində beynəlxalq standartların mənimsənilməsi və onların tətbiqinin davamı, Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti" daxilində olan 2006-ci il qəbul olunmuş "Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planı"-nın "Respublika gömrük siyasəti işinin gücləndirilməsi" ilə əlaqəli

maddələrin icra edilməsi, o,cümlədən Gömrük rejimlərinin asanlaşdırılması və uyğunlaşdırılması haqqında Kioto Konvensiyasının iddialarının həmçinin ÜGT-nın "Beynəlxalq Ticarətin Sadələşdirilməsi və Təhlükəsizliyi üçün Çərçivə Standartları"-nın daxili gömrük normativlərində göstərilməsi məqsədilə DGK-də Avropa İttifaqı və BMT-nın İnkişaf Proqramının bərabər reallaşdırdığı ölkəmizdə Gömrük Xidmətinin İnkişafı proyekti daxilində Azərbaycanda müəyyən işlər görməkdə olan beynəlxalq dərəcəli mütəxəssislər vasitəsi ilə gömrük komitənin ekspertlərinin müasir səviyyədə iştirakı ilə AR GM layihəsi hazırlanmışdır (http://anl.az/down/meqale/azerbaycan/2010/may/118515.htm 2010).

İlham Əliyev tərəfindən 2007-ci il fevralda təsdiq olunan "Ölkənin gömrük fəaliyyətinin 2007-2011-ci illər ərzində inkişafına dair Dövlət Proqramı"ında olan tədbirlər eləcə də prezidentin noyabr ayının 11-i 2008-ci il fərmanına görə sərhəd buraxılış məntəqələrindən (SBM) aparılan məhsulların eləcə də nəqliyyat növlərinin müayinə olunmasında "bir pəncərə" adlı lahiyənin icrasında əsas hədəf gömrük orqanlarının işinin daha da təkmilləşdirməkdir.

İlham Əliyevin mart ayının 15-i 2010-cu il sərəncamı ilə təsdiqlənmiş "AR DGK və ÜGT arasında Bakıda potensialın artırılması üzrə ÜGT regional ofisinin təşkili ilə bağlı olaraq Anlaşma Memorandumu"-nun reallaşdırılmasına başlanması lazimi əhəmiyyətlilik xarakteri daşıyır. Qeyd edilən ofis Avropa vilayətində imkanların artırılması əsası kimi koordinasiya həmçinin bir sıra tədbirlərin reallaşdırılması, donor müəssisələrlə ikitərəfli münasibətlərin təşkilini təchiz etməklə Ümümdünya Gömrük Təşkilatına üzv olan ölkələrlə səmərəli işin yaradılmasına xidmət edəcək.

Prezidentin imzladığı 2004-cü il mart ayının 5-i 598 nömrəli sərəncamı ilə təsdiq olunan "AR Cinayət-Prosessual Məcəlləsinin tətbiq olunması ilə bağlı qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barəsində Azərbaycan Respublikasının Qanununu" X bəndinə görə, AR GM-nə edilən əlavələr sonunda gömrük orqanlarına cinayətlər barəsində işlər üzrə istintaq aparmaq vəzifəsi verilmişdir. Belə ki, gömrük orqanları baş vermiş cinayət xarakterli hadisələrin istinqaqını özü aparacaq. Gömrük orqanları, bu səlahiyyəti əldə etməklə gömrük

siyasətini tamlıqla aparan vahid dövlət orqanına çevrilir. Bu isə gömrük fəaliyyəti sahəsində baş vermiş cinayətlərin qarşısının alınmasında “hüquqi inqilab” deməkdir(http://www.yap.org.az/az/view/interview/615/musteqil-azerbaycan-sabitlik-ve-inkishaf-yolu-ile-inamla-irelileyir.2018).

Dövlətimizin gömrük fəaliyyətinə dair qaydaların təkmilləşdirilməsi, gömrük işi ilə əlaqəli dünya standartlarının mənimsənilməsi və onların tətbiqi edilməsinin davam etdirilməsi və "Gömrük prosedurlarının asanlaşdırılması və uzlaşdırılması barəsində" Kioto Konvensiyasının maddələrinin milli gömrük qanunlarında əks edilməsi üçün DGK-də Avropa İttifaqı (Aİ) eləcə də BMT-nın İnkişaf Proqramı tərəfindən "Azərbaycan Respublikasının gömrük xidmətinin təkmilləşdirilməsi" məqsədi ilə ölkənin yeni standartlara cavab verən Gömrük Məcəlləsinin planının hazır olunması ilə əlaqədar işlər görülmüşdür (S.Ağayev, S.Hüseynov 2021).

Bazar iqtisadiyyatına keçid dönəmini yaşayan dövlətlərdə olduğu kimi, ölkəmizdə də sahibkarlıq fəaliyyətinin tərəqqi etməsi mərhələləri bir sıra mürəkkəb proseslərdən keçmişdir. Lakin ölkə rəhbərliyi tərəfindən sahibkarlığın gücləndirilməsi, ona əlverişli şərait yaradılması ön planda olan məsələlərdəndir. Bununla belə gömrük təşkilatları da, bu kimi hallardan kənarda qalmamışdır. Burada gömrükçü və sahibkar əlaqələrinin qurulması və bir sıra problemlərin aradan qaldırılması məqsədilə, sahibkarlarla genişmiqyasda iclaslar keçirilmişdir.

## 1.3. Azərbaycan Respublikası gömrük sisteminin tənzimlənməsinin hüquqi - normativ aspektləri

Azərbaycan Respublikasında olan vahid gömrük qanunvericiliyi özündə Azərbaycan Respublikasının Konstitusiyasını, beynəlxalq razılaşmaları, dövlət qanun və normalarını, o,cümlədən ölkə rəhbərinin fərmanlarının daxil olduğu hüquqi aktları, AR Hökumətinin qərarlarını, həmçinin İqtisadi İnkişaf Nazirliyinin və başqa müəyyən icra hakimiyyətinin normativ-hüquqi aktlarını birləşdirir. 30 yanvar. Komitə əsasən 1992-ci ildə əvvəlki Azərbaycan Gömrük idarəsinin bazasında təşkil edimişdi. Prezidentin Fərmanı əsasında AR Nazirlər Soveti 1992-ci il 1 iyun "AR Gömrük Komitəsinin məsələləri haqqında" qərar verdi. Daha sonra isə 1994-cü il 19 yanvar qərarı ilə Gömrük Komitəsinin problemlərinin və ona tabe olan idarələrin siyahısının həlli haqqında, onun maddi-texniki bazasının təşkili barəsində qərarını verdi. Göstərilən qərarda Komitənin maddi-texniki təminat işləri ilə bərabər, müasir tipli postların istifadəyə verilməsi də həmçinin göstərilmişdir. Bir zamanlar DGK-nə Naxçıvan Muxtar Respublikası GK, Bakı Baş Gömrük İdarəsi, 10-dan çox olan gömrükxanalar, əsas laboratoriya, avtomobil təsərrüfatları həmçinin, təsərrüfat hesablı olan "Azərterminalkompleks" aid idi (Şəkərəliyev A.Ş., Nuriyev C.Q, Əliyev A.Ə., Şəkərəliyeva Z.A 2018).

Gömrük fəaliyyətinin hüquqi təminatında əsas mövqeyi "Gömrük Məcəlləsi" və "Gömrük tarifi haqqmda"qanun tutur. AR Gömrük Məcəlləsi (GM) gömrük prosedurlarının və ödəmələrin formalarını, əmtəə və nəqliyyat vasitələrinin gömrük orqanları tərəfindən rəsmiləşdirilməsi normalarını, gömrük orqanlannm hazırki statusunu, eləcə də, hüquqi və fiziki şəxslər arasında hüquqi əlaqələri tənzimləyir. Bu məcəllə hər şeydən öncə gömrük orqanlarının, o cümlədən, gömrük hüdudundan əmtəə və nəqliyyat vasitələrini keçirənlərin hüquq və vəzifələrini reqlamentləşdirir. AR gömrük qanunvericiliyinə görə XİF iştirakçıları gömrük hüdudlarından əmtəə və nəqliyyat vasitələrini keçirən şəxslərdir. Onu da qeyd edək ki, Məcəlləi 14 bölmə, 61 fəsil və 450 maddədən ibarətdir və ölkəmizdə gömrük orqanlarının fəaliyyətinin hüquqi təminatının başlıca qanunudur. Digər gömrük qanunlarını isə gömrük hüququnun mənbəyi şəklində iki qrupa ayırmaq mümkündür:

a) birbaşa gömrük problemlərinii tənzim edən normalar;

b) dolayı yolla gömrük hüquqi-normativ qaydalarını tənzim edən normalar.

İlk kateqoriyaya “Gömrük tarifi haqqında” norma, eləcə də, gələcəkdə birbaşa bu fəaliyyət ilə əlaqəlı qəbul olunacaq başqa normativ sənədləri aid etmək olar.

Digər qrupa “Azərbaycan Respublikasının Vergi Məcəlləsi”, “Girov haqqında”, “Valyuta tənzimi haqqında”, “İstehlakçıların hüquqlarının qorunması barəsində” və s. hüquqi qanunlar aid eləmək mümkündür (İbrahimov A. 2019)

İlk kateqoriyaya aid edilən normativ-hüquqi akt 1995-ci ildə hökmüət tərəfindən təsdiq edilmişdir bundan başqa 7 fəsil və 37 maddədən ibarət olmaqdadır. Göstərilən Qanun ölkəmizdə yerli bazarın xarici bazar ilə mütərəqqi münasibətini təmin eləməklə bərabər xarici ticarətin dövlət tənzim etməsinin əsas üsulu sayılmaqda olan gömrük tarif dərəcələrinin yaradılması və tətbiq olunması habelə respublikanın gömrük sərhədindən keçən məhsullardan ödəniş tutulması normalarını müəyyən edir. Bu Qanunun tətbiq sahəsi isə vahid gömrük ərazisi sayılır.

Gömrük tariflərinin təşkili və tətbiqi qaydası bu qanunda müəyyənləşdirilmiş və başlıca məqsədləri aşagıdakılardır:

- AR da idxalın mal strukturunu mümkün qədər optimalaşdırmaq;

- Ölkə məkanında məhsulların gətirilməi eləcə də, aparılmasının, valyuta gəlir və xərcinin səmərəli əlaqənin təmini;

- valyuta sərvətlərinin ölkənin gömrük məkanına gətirilməsi və aparılması üzərində məqsədəuyğun nəzarət etmək;

- Ölkəmizdə məhsulların istehsal və istehlak strukturunda mütəşəkkil islahatlar üçün imkan yaratmaq;

- Ölkənin daxili iqtisadiyyatını xarici rəqabətin müdafiə etmək. (Gömrük tarifi haqqında qanun 2013 maddə 2)

Bununla belə ölkə ərazinsində ixrac olunan mallara görə gömrük ödənişlərinin dərəcələri eləcə də onların qoyulduğu məhsulların siyahısı, xarici iqtisadi tənzim etmənin əsası qeyri-tarif tədbirləri AR Nazirlər Kabineti tərəfdən müəyyən edilir.

Hökümətin səmərəli ticarət rejimi tətbiq etdiyi dövlətlərin məhsulları üçün ixrac gömrük vergilərinin dərəcələrinin yekun həddi AR Milli Məclisi tərəfindən təyin edilir. Gömrük tarif tənzimlənməsinin hüququnun başlıca məqsədləri bunlardır:

1) gömrük işini reallaşdırmaq, onun inkişafını təmin etmək məqsədilə, gömrük və başqa dövlət orqanlarına əlverişli fəaliyyət imkanı formalaşdırmaq;

2) gömrük işinin aparılması məqsədilə mütərəqqi, elmi cəhətdən əsaslandırlan həmçinin, ən çox müasir meyarlara söykənən təkmil gömrük sistemi təşkil etmək;

3) respublika vətəndaşlarının huquq eləcə də müstəqilliklərinin qanuni təminatı, əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan fərdlərin, habelə hüquqi şəxslərin gömrük qanunlarında nəzərdə tutulmuş bütün hüquqların müdafiəsi məqsədilə təkmil, sabit hüquqi təminat təşkil etmək;

4) AR-nın sosial-iqtisadi üstünlüklərini və mənafelərini müdafiə (Gömrük tarifi haqqında qanun 2013).

Gömrük-tarif tənzim etməsinin önəmli hissələrindən biri də gömrük ödənişlərinin tutulması halları sayılır. Burada gömrük ödənişləri "Gömrük Məcəlləsi"nin 108-ci maddəsində nəzərdə tutulmuşdur. Burada nəzərdə tutulan gömrük ödənişlərinə ƏDV, aksiz, gömrük rəsmiləşdirilməsi üçün gömrük yıgımları, saxlanca görə yığımlar, məhsulların gömrük müşayiəti üçün yığımlar və s. aid olunur.Vergi və gömrük ödənişlərinin hüquqi əsasını AR Gömrük Məcəlləsində nəzərdə tutulan prinsplər, o cümlədən müvafiq qanunları təşkil edir. Azərbaycan Respublikası gömrük məkanına gətirililmiş və aparılmış məhsullara əlavə dəyər vergisinin tətbiqi edliməsi GM və «Vergi Məcəlləsi»nə uygun reallaşdırılr.

Gömrük qaydalarına müvafiq olaraq, idxal-ixrac əməliyyatlarında əlavə dəyər vergisi və aksiz vergiləri tətbiq olunur. Əlavə dəyər vergisi dolayı vergi olub, istehlakçıların xərclərindən tutulur. Çünki əlavə dəyər vergisi istehsalda alqı-satqı halında formalaşır. 2001-ci il 1 yanvar "Vergi Məcəlləsi"nə görə əlavə dəyər vergisi dərəcəsi 18% olaraq qəbul edilmişdir. Bu vergi növünün faiz dərəcəsi, hesablanması, vergitutma obyektləri bir sıra dövlətlərdə fərdi xüsusiyyət daşıyır. Azərbaycan Respublikasında da ƏDV barəsində müxtəlif normalar qəbul edilmişdir.

Ölkəmizdə 1992-ci ilə kimi bu vergi növünün dərəcəsi 28% idisə, 2014-ci ildən sonra 18%-ə olmuşdur. Bu verginінnin tətbiqi 2 funksiyanı yerinə yetirir: (AR Vergi Məcəlləsi 2019, 173-cü maddə).

Aksizlər. Dolayı vergilərin bir növü də aksizlərdir. Bu vergi növü istehlak məhsullarına və xidmətlərinə tətbiq olunduğu üçün, birbaşa istehlakçıar tərəfindən ödənilir. Aksizlərin faiz dərəcəsi, AR-nın Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Hal-hazırda bu vergi növünün faiz dərəcələri 10 faizdən 90 faizə kimi (içməli spirt) olur (https://www.taxes.gov.az/uploads/2017/PV_new/aksizler.pdf 2017).

Bunu da qeyd edək ki, ixrac mallarına tətbiq edilən ƏDV və aksizləri vergi orqanları, idxal olunan məhsullar üçün müəyyən olunmuş ƏDV-ni və aksizləri gömrük orqanları toplayır.

Əmtəə formasında gömrük hüdudundan aparılan məhsulların həmçinin nəqliyyat vasitələrinin, həmçinin müşayət edilməyən baqajda, beynəlxalq olan poçt göndərişlərində keçiriləcək, alqı-satqı hədəfləri məqsədilə nəzərdə tutulmamış məhsulların eləcə də, nəqliyyat növlərinin gömrük orqanları tərəfindən rəsmiləşdirilməsi üçün qanunda müəyyənləşdirilmiş həcmdə gömrük yığımları alınır. Gömrük rəsmiləşdirilməsi üçün gömrük yığımlan, gömrük fəaliyyəti sisteminin xidməti xərcləri şəklində dəyərləndirilir. Göstərilən bu növ ödənişlər bilavasitə büdcə vəsaiti sayılır.

AR Nazirlər Kabinetinin 2001-ci il aprel ayında imzlanmış müvafiq qərarı ilə rəsmiləşdirilmə məqsədilə gömrük orqanlarında gömrük yığımlarının həcmi formalaşmışdır:

1) mal qismində respublikanın gömrük sərhədindən aparılan alqı-satqı məqsədləri üçün nəzərdə tutulmamış məhsulların eləcə də yüklərin (100 dollardan aşağı olduqda 10 dollarından az olmayaraq), nəqliyyat vasitələrinin, habelə AR Mərkəzi Bankı tərəfindən ölkənin gömrük məkanından xaricdə sifariş verilməklə gətirilmiş milli valyutanın gömrük rəsmiləşdirilməsi üçün gömrük dəyərinin, xarici valyuta sərvətlərinin nominal dəyərinin 0,15% həcmində, Azərbaycan Mərkəzi Bankı tərəfindən müəyyənləşdirilən məzənnəyə görə gömrük yıgımları alınır.

2) Ölkənin gömrük sərhəddindən qrant barəsində sazişə görə qrant formasında əldə olunan eləcə də, humanitar yaxud texniki yardım üçün, həmçinin respublika məkanında olan diplomatik numayəndələrinin rəsmi və nəqliyyat vasitələri, elektrik enerjisinin ikitərəfli şəkildə keçirilməsi məqsədilə, gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsinə üçün yığımlar toplanır.

3) Gömrük Yük bəyannaməsinin əlavə olunan vərəqi üçün razılaşma xüsusiyyətindən asılı olmayaraq 5 dollar məzənnəyə görə manatla ödəniş toplanır.

4) Ölkənin gömrük hüdudundan tranzit gömrük proseduru adı altında aparılan məhsulların orqanlar tərəfindən gömrük rəsmiləşdirilməsi üçün 30 dollar, növbəti digər Tranzit Yük Bəyannaməsi səbəbilə 10 dollar həcmində yığımları toplanır.

5) Ölkə vətəndaşları vasitəsilə ölkənin gömrük məkanına gətirilmiş nəqliyyat növlərinin qeyd olunması üçün sənəd təqdim edilməsi üçün: - yük eləcə də, minik avtomobilləri, avtobuslar üçün isə - 20 ABŞ dollar məbləğində; başqa nəqliyyat növləri üçün isə 15 ABŞ dollar həcmində ödəniş toplanır (İbrahimov T 2017).

# II FƏSİL. AZƏRBAYCANDA FORMALAŞAN VAHİD GÖMRÜK ORQANLARI SİSTEMİNİN FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Azərbaycan Respublikası DGK - təşkilati strukturu

Gömrük orqanları fəaliyyətinin inkişafı idarəçilik məsələlərinin həlli ilə bağlıdır, ona görə ki, idarəetmə hər zaman bu və ya başqa idarənin ayrı-ayrı halqaları arasında düzgün qarşılıqlı əlaqələrin müəyyən edilməsi ilə başlayır.

Azərbaycan Respublikasında reallaşdırılan idarəetmənin təşkilati strukturu dedikdə, idarəetmənin iyerarxik sayılan hissələrinin eləcə də bu hissələrin vahid bir bütün kimi tərəqqi etməsini realllaşdıran bir-biri ilə qarşılıqlı şəkildə olan münasibətlərin nizamlanmış məcmusu başa düşülür. İdarəetmənin təşkilati strukturları analiz olunarkən, onlarda aşağıdakı hissələr bölünür: idarəetmə halqaları, idarəetmə səviyyələri, qarşılıqlı əlaqələr. Gömrük sistemində idarəetmə halqalarına bunlar daxildir:

1. AR DGK;
2. DGK-nin idarə və müstəqil şöbələri;
3. gömrükxanalar;
4. gömrükxana şöbələri;
5. ölkədə gömrük işini aparan gömrük postları eləcə də uyğun idarəçilik kimi xüsusi funksiyalarını icra edəcək xüsusi ekspertlər.

İdarəetmənin qeyd edilən halqaları idarəetmə iyerarxiyasının uyğun dərəcələrində yerləşir. İdarəetmə dərəcələri-təşkilatın idarəetmə sistemində pillə tutmuş idarəetmə halqalarının toplusudur (Şəkərəliyev A.Ş, Nuriyev C.Q., Əliyev A.Ə., Şəkərəliyeva Z.A.2018).

Gömrük orqanlarında idarəçiliyin dairələri və dərəcələri arasında olan qarşılıqlı formada əlaqələrin şaquli idarəçilik, üfüqi idarəçilik, diaqanal idarəçilik növləri vardır:

Şaquli əlaqələr, başçılar və tabeliyində olanlar arasındakı qarşılıqlı əlaqələri nəzərdə tutur, bu anda isə xətti subordinasiya üzə çıxır; dərəcələr üzrə isə bütün alt

idarəetmə halqaları daha üst idarəetmə dərəcəsindəində yerləşən başçının tabesində olur. Bu da  xətti əlaqələr adlanır.

Misal üçün, gömrükxanaların maliyyə bölməsinin rəhbəri gömrükxana rəhbəri müavinin, gömrükxana rəisinin və başqa üst xətti rəhbərlərin xətti tabesində yerləşir.

Üfüqi əlaqələr də iki cür olur. Kollegial və paralel. Birincisi, bir rəhbərin tabeliyində olan bir bölmənin işçiləri  arasındakı əlaqələrdir. İkincisi, idarədə bərabər tərəf tutan, qarşılıqlı, mülahizələri mübadilə etmək vacibliyinin meydana çıxdığı müəyyən bölmələrin əməkdaşları arasındakı əlaqələrdir.

Diaqonal əlaqələr idarəetmə sisteminin müəyyən dərəcələrində yerləşən, bilavasitə  tabelilik əlaqəsində olmayan, amma üst səviyyələrin qərarlarını icra etməkdə bir-birilə qarşılıqlı bağlılıqlı olan idarəetmə halqaları arasında yaranan əlaqələrdir. Bu cür əlaqələrə  nümunə kimi məhsulların çatdırılmasındakı qarşılıqlı informasiyalandırmanı, hüquq mühafizə funksiyalarının reallaşdırılması problemləri üzrə icrası icbari olan sorğuların göndərilməsini qeyd eləmək olar (Quliyev E., Mehrəliyev İ.2012).

DGK-nin daxilində həmçinin kollegiya da çalışır. Bu idarələrin qarşısında dayanan məqsədlərin icarsı üçün, habelə  nəzarətecdici və əlaqələndirici funksiyalarını reallaşdırmaq məqsədilə DGK daxilində bir sırastruktur şöbələr fəaliyyət göstəməkdədir:

1. Gömrük Nəzarətinin Təşkili üzrə Baş İdarə. Bu orqanın tərkibində iki bölmə çalışır:

- ticarət dövriyyəsindən müayinəsinin aparılması təşkilatı-Yük bölməsi tərəfindən həyata keçirilir.

- ticarət olmayan dövriyyədə yoxlamsının aparılmas təşkilatı -Sərnişin bölməsi tərəfindən həyata keçirilir.

Bu idarənin başlıca məqsədləri bunlardan ibarətdir:

- respublika məkanında gömrük nəzarətini lazım olan dərəcədə aparılmasını təmin etmək.

- daxili gömrük orqanlarından yoxlanışın aparılması üzrə işə başçılıq eləmək;

- idarə rəhbərliyinə ölkə məkanında nəzarətinin təşkil edilməsi haqqında informasiya vermək;

- yeni təcrübənin mənimsənilməsi və gömrük orqanları üzrə genişlənməsini təmin etmək, ölkə ərazisində yaradılacaq gömrük obyektlərinin proyektlərinə baxmaq.

2. Qaçaqmalçılıq eləcə də, Gömrük normalarının Pozulması ilə Mübarizə baş idarəsi. Bu idarənin nəzdində müəyyən bölmələr var: narkotik maddələrin qeyri-qanuni keçirilməsi dövriyyəsi əleyhinə mübarizə bölməsi və təhqıqat bölməsi.

3. Statistika və Təhlil İdarəsi- yerli (lokal) və paylanmış bölmə, gəlirlərin istisması bölməsi, statistika və təhlil bölməsi.

4. Maliyyə-tarif və Valyuta nəzarəti baş idarəsinin daxilində yerləşən tranzit şəkildə daşımalarla müayinə üzrə baş idarəyə bir sıra bölmələr aiddir: maliyyə, gömrük ödənişi, gömrük-tarif tənzimlənməsi, valyuta nəzarəti və aksizlər şöbəsi.

İşçi və kadr hazırlığı idarəsinin daxilində iki bölmə yerləşir: gömrük orqanlarının işçilərlə kompleksləşdirilməsi üzrə bölmə, işçi hazırlığı üzrə bölmə (Şəkərəliyev A.Ş.,.Nuriyev C.Q, Əliyev A.Ə., Şəkərəliyeva Z.A. 2018 ).

**Şəkil 1: DGK-nin strukturuna daxil olan orqanların görünüşü**




**Mənbə: (**DGK saytı 2019 http://customs.gov.az/az/komite/gomruk-orqanlari)

Gömrük orqanlarında təşkilati idarəetmə strukturlarının analizi göstərilmiş olan müəyyən tələbləri yaratmağa şərait yaradır:

1. Sadəlik və qənaatcillik. Bildiyimiz kimi, çətin təşkilati struktur idarəçilik orqanlarının fəaliyyətini çətinləşdirir və onun qorunması üçün xərclərin çoxalmasına səbəb olur. Buna görə də, gömrük iadrələrində yeni struktur birləşmələri o zaman təşkil edilir ki, bunların hər hansısa xidməti funksiyanı həyata keçirməyinin məqsədəuyğunluğu digər birləşmələrdə fəaliyyət göstərən əməkdaşlar tərəfindən bu funksiyanın reallaşdırılmasının faydalılığı ilə nisbətdə açıq şəkildə daha da böyük olsun. Misal üçün, gömrkxanalarda narkotiklərin qanunsuz dövriyyəsi əleyhinə şöbələrinin təşkili göstərilən həmin tədbirlər sistemində bu funksiyanın bir sıra xidmətlərin eləcə də birləşmələrin əməkdaşları vasitəsi ilə reallaşdırdığı zaman ilə müqayisədə gömrükxanaların işinin faydalılığını yüksəltmək üçün nəzərdə tutulmuşdur. Bundan başqa açıqlıq, müəyyənlik, idarəedilə bilmə, sabitlik, cəldlik kimi bir sıra tələbləri yaratmağa şərait yaradır:

Struktur nə qədər mürəkkəb olarsa, o zaman genişlənmələr bir o qədər böyük olar və birs sıra faktorlar idarəetmədə bir o qədər böyük rol oynayar:

- hüquqlarınn ötürülməsi. Misal üçün, gömrükxana rəhbəri tamamilə gömrük orqanının işinə cavabdelik daşımalıdır. Amma rəhbər, səlahiyyətlərin müəyyən bir hissəsini gömrükxana rəhbərinin köməkçilərinə, gömrükxanaların bölmə rəhbərinə həmçinin postların başçılarına verməyə məcburdur. Onlar həmçinin, müxtəlif səlahiyyətləri tabeliyində olan dəstələrə eləcə də, gömrük fəaliyyətinin ayrıca ekspertlərinə verirlər ki, bu şəxslər də bu tapşırıqların yerinə yetirilməsinə görə onların qarşısında hesabat təqdim edirlər;

- koordinasiya. Qarşıya qoyulan tapşırıqların icrasında nə qədər çox ekspert fəaliyyət göstərirsə, onların cəhdləri həmçinin mümkün qədər çox razılaşdırılmalıdır. Məlumat bir dərəcədən başqasına keçirilir və üfüqi formada məlumat mübadiləsi həyata keçirilir;

- səlahiyyətlilik. Gömrük orqanlarının işçisinin məsul olma halqası möhkəm şəkildə müəyyənləşdirilməlidir. Başçının səlahiyyətliliyi onun şöbəsinin yaxud bütövlükdə gömrük orqanının fəaliyyətini necə formalaşdıra bilməsində ifadə edilir.

- mərkəzləşdirmə. Gömrük orqanı rəhbərinin “ovucunda” səlahiyyət o cümlədən birbaşa tabe mütəxssislər kifayət artıq olarsa, onun idarəetmə işinin mərkəzləşmə dərəcəsi də kifayət qədər ali olmuş olar. İdarənin başçısı müəyyən etməlidir ki, funksiyaların hansı miqdarı onun üçün hansı isə alt halqalara təqdim edilir (Rzayev E. 2019).

**Şəkil 2: Azərbaycan Respublikası DGK- təşkilati strukturu**




**Mənbə: (**DGK rəsmi saytı https://customs.gov.az/az/komite/aparatin-strukturu/ 2020 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır)

Gömrük orqanlarının idarəçilik sisteminin ümumi və xüsusi hədəfləri Gömrük Məcəlləsində, Azərbaycan Prezidentinin, dövlətin və eləcə də, DGK-nin qanunvericilik və hüquqi normativ sənədlərində müəyyən olunmuşdur.

Gömrük orqanları sistemində idarəçiliyin əsas məqsədi Azərbaycan Respublikasının iqtisadi siyasətinin aparılmasını təmin etməkdir İdarəçiliyin bu məqsədinin nail olunması müxtəlif formada həyata keçirilir:

•Dövlət büdcəsi gəlirlərinin doldurulması üzrə başlıca orqan kimi gömrük idarələrinə tapşırılan vəzifələrin icrası ilə;

•Hüquq-mühafizə idarəsi kimi gömrük xidməti rolunun yüksəldilməsi ilə;

•Respublika gömrük xidmətlərinin başqa ölkələrin gömrük xidmətləri ilə inteqrasiyasının inkişafı üzrə iş ilə (Qanbayev E.E.2020).

## 2.2. Gömrük orqanlarının əsas funksiyaları və kompetensiyalarını yerinə yetirilməsi baxımından fəliyyətlərinin təhlili

Respublikamzda gömrük fəaliyyəti mərkəzi sistem formalaşdıran gömrük orqanları vasitəsilə reallaşdırılır. Ölkəmizdə gömrük fəaliyyətini həyata keçirən icra orqanı barəsində əsasnamə uyğun icra orqanı tərəfdən təsdiq olunur. Dövlət Gömrük Komitəsinə sədri və onun müavinlərini təyin etmək Prezidentin səlahiyyətindədir. AR gömrük idarələri aşağıdakı mühüm funksiyaları yerinə yetirir:

- hökümətin gömrük sisteminin səmərəli formalaşdırılmasında yaxından iştirak edir eləcə də, bu siyasəti reallaşdırır;
- gömrük fəaliyyətini reallaşdırarkən firmaların, fiziki şəxslərin, maraqlarının qorunması üzrə müəyyən tədbirlər görür;
- gömrük yığımlarını yığır və onların dəqiq hesablanması işinə nəzarət edir,
- Azərbaycan Respublikasının XİF-in dövlət tənzimlənməsi və gömrük sərhəddindən AR beynəlxalq sazişlərinə əsasən keçirilən məhsullara yasaq və məhdudiyyətlərin müəyyənləşdirilmiş normativlərə uyğun keçirilməsini təmin edir;
- gömrük işi sferasında cinayətkarlığa qarşı mübarizə reallaşdırırlar; narkotik maddələrin, bədii və arxeoloji sərvətləri olan şeylərin, intelektual mülkiyyət obyektlərinin, sayı azalmaqda olan flora və fauna növlərinin gömrük hüdudundan qeyri - qanuni keçirilməsinin qarşısını alırlar;
- öz səlahiyyətləri çərçivəsində dövlətin iqtisadi təhlükəsizliyini təmin edirlər;
- dövlətin valyuta tənzimlənməsi və valyuta nəzarəti barəsində normativlərə müvafiq olaraq gömrük sərhəddindən əmtəə və nəqliyyat vasitələrinin keçirilməsi ilə valyuta nəzarəti əməliyyatını aparır (Quliyev E., Mehrəliyev İ.2012 ).

Mövcud qaydalara əsasən əmtəə və nəqliyyat vasitələri bəyan ediləndən, gömrük rejimində yerləşdirilənə kimi gömrük nəzarəti altında olmuş olurlar.

Yeni Gömrük məcəlləsinin 13-cü maddəsinə əsasən, “Beynəlxalq ticarətin sadələşdirilməsi üçün gömrük orqanları ölkə hüdudunun buraxılış yerlərində məhsullara  baytarlıq, fitosanitar həmçinin uyğun icra hakimiyyəti idarəsinin müəyyənləşdirdiyi başqa  yoxlanış formalarını kifayət qədər az zaman ərzində “bir pəncərə” prinsipi əsasında reallaşdırır.

Gömrük orqanları və başqa dövlət orqanları risklərin minumumlaşdırılması, beynəlxalq ticarət-təchizat zəncirinin işinin təhlükəsizliyinin təmin olunması, xarici ticarətin sadələşdirilməsinə imkanın yaradılması üçün gömrük hüdudundan keçirilən əmtəə və nəqliyyat vasitələrinin gömrük məkanına  gətirilməsi, aparılması, tranziti ilə əlaqəli əldə olunan informasiyaların öz aralarında eləcə də, müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada digər dövlətlərin gömrük və başqa səlahiyyətli dövlət orqanları ilə mübadiləsini reallaşdırır (http://www.e-qanun.az/framework/15605 2008)

Müasir dövrdə beynəlxalq iqtisadi əlaqələr sisteminə daxil olan Azərbaycan daha böyük hüquqi-iqtisadi imkanlara sahibdir. Son zamanlarda ölkə miqyasında reallaşdırılan iqtisadi-sosial islahatlar, beynəlxalq hüquqa əsaslanmış idarəetmə xüsusiyyətləri və xarici iqtisadi münasibətlərin liberallaşdırılması ümumi tərəqqinin sürətli və dayanıqlı xarakter daşıması ilə üzvi şəkildə əlaqədardır. Gömrük nəzarəti ölkəmizdə gömrük qanunvericiliyinə əməl edilməsini təmin etmək məqsədilə gömrük təşkilatları tərəfindən reallaşdırılan demək olar ki, bütün fəaliyyət sahələrini əhatə edir.

Gömrük idarələrinin əməkdaşları ölkənin müasir gömrük müayinəsinin mütərəqqi növü kimi olan şəxsi müayinəni rəhbərliyin müvafiq qərarı ilə aparırlar. Gömrük nəzarəti metodlarını seçilmiş gömrük nəzarətinin formasının tətbiq olunması vaxtı səmərəliliyi yüksəltmək məqsədilə  həyata keçirilən tədbirlər əhatə edir. Gömrük idarələrinin rəsmiləri gömrük nəzarətini gömrük təminatı vasitələrindən, gömrük nəzarətinin aparılmasına yardım üçün mütəxəssisləri sövq

etməklə; gömrük nəzarəti zonalarını təşkil etməklə və qanunvericilikdə nəzərdə tutulmuş başqa metodlarla həyata keçirirlər (Xəlilli A. 2017).

Gömrük idarələrinin rəsmiləri gömrük müayinəsini bir sıra metodlarla reallaşdırırlar: nəzarətinin aparılmasına kömək üçün mütəxəssislərin cəlb olunması ilə, gömrük təminatı üsullarından istifadə edilməklə, gömrük nəzarəti zonalarını təşkil etməklə və qanunda nəzərdə tutulan başqa metodlarla.

Gömrük yoxlamasının reallaşıdırılması anında gömrük idarələri müxtəlif metodlardan yararlanır:

1. texniki baxış vasitələrin eləcə də, rentgen kimi cihazlar, sürət-çıxaran quğular, detektorlar, elektronlu cihazlar, gömrük nəzarəti üçün müşahiəedici cihazlar, qlobal mövqetəyinetmək sistemi (GPS);
2. dəniz və çay gəmilərindən;
3. gömrük idarələrinin məlumat mənbələrindən;
4. xidməti itlərdən eləcə də ,nəzarətin hədəflərinə çatmaq məqsədilə NK tərədən müəyyənləşmiş başqa vasitələrdən
5. hava gəmilərindən (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. 2015).

Ölkəmizdə gömrük işində nəzarətin daha da möhkəmləndirilməsi məqsədilə risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin (RAİS) Konsepsiyası yaradılmışdır. Risklərin Avtomatlaşdırılmış İdarəetmə Sisteminin Konsepsiyası 2005-ci il 113 saylı, 22 noyabr tarixli əmri ilə təsdiq olunmuşdur.

Gömrük nəzarət kateqoriyalarının seçimi zamanı yeni tələblərə müvafiq olaraq «Risklərin avtomatlaşdırılmış idarəetmə sistemi»ndən istifadə edilməlidir. Ölkənin gömrük xidmətinin üç dərəcəli olması və bir məlumat şəbəkəsində əhatə edilməsi «Risklərin avtomatlaşdırılmış idarəetmə sistemi»nin (RAİS) daha da uğurlu fəaliyyət göstərməsinə imkan verir. Risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin başlıca funksiyaları aşağıdakılardır.

- riskləri müəyyənləşdirən informasiyaların qəbulu, emalı və analizi;

- dövlətin inzibati orqanları və digər dövlətlərin mərkəzi gömrük orqanları ilə «on-line» rejimində tədqiqat üçün informasiya mübadiləsinin həyata keçirilməsi;

- gömrük hüquqpozmalarının yaranma səbəblərinin müəyyənləşdirilməsi.

Gömrük xidmətinin mühüm problemlərinin həllini təmin edən RAİS aşağıdakı baza prinsiplərinə əsaslanır:

- Ölkənin gömrük qanunvericiliyini təmin etmək üçün gömrük xidmətinin bütün problemlərinin və onların həlli yolları bir mövqedən səmərəli istiqamət prinsipi əsasında reallaşdırılmalıdır;

- RAİS və "Gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin avtomatlaşdırılmış idarəetmə sistemi" (GRGNAS) və digər dövlətlərin mərkəzi gömrük aparatlarının «Avtomatlaşdırılmış idarəetmə sistemlər»i arasında məlumatlarının uyğunlaşdırılması prinsipi istifadə edilməlidir;

Məhsullara gömrük nəzarəti dediyimiz zaman,ölkəyə gətiriləcək, ölkədən çıxarılacaq və tranzit məhsullarına gömrük nəzarəti növləri nəzərdə tutulur. Nəqliyyat vasitələrinə gömrük nəzarəti -dəniz gəmilərinə, çay gəmilərinə, dəmiryol qatarlarına, hava gəmilərinə, avtonəqliyyat vasitələrinə gömrük nəzarəti kimi aparılır(https://customs.gov.az/modules/law/lawfolder/6/FILE_4A54FF-4195BE-D638DA-AA4392-FDB8B5-14246A.pdf 2005).

Əməkdaşlıq aparan dövlətlərin gömrük idarələrinin gömrük nəzarətində iştirak etmə xüsusiyyətindən asılı olaraq ikitərəfli, birtərəfli və birgə gömrük nəzarəti formaları seçilə bilər.Gömrük nəzarəti birdəfəlik,təkrar ola bilir. Birdəfəlik gömrük nəzarəti o zaman həyata keçirilir ki, gömrük sərhəddi yalnız bir istiqamətdə və gömrük yoxlamas isə bir dəfə aparılır. Əgər məhsul və nəqliyyat vasitələri az vaxt ərzində gömrük sərhədini iki dəfə keçirsə, onlar yenidən gömrük müayinəsi altına düşür. Təkrar gömrük nəzarətinin aparılması üçün gömrük sərhəddinin dəfələrə keçilməsi hər zaman tələb edilmir. Məsələn, xaricə gedən dəniz gəmisi təyinat limanına çatanda gömrük məntəqəsini keçərkən gömrük yoxlmasına cəlb olunmuşsa, onlara yenidən bir daha yoxlanış aparılmır. Buna baxmayaraq qaçaqmalçılıq digər hüquq pozulmaları haqqında müəyyən informasiya aşkar edildikdə gömrük idarələrinin yenidən gömrük nəzarətini təşkil etmək hüququ vardır. Göstərilmiş normalar başqa nəqliyyat vasitələrinə də aid edilir (Heydərov K.F., Əliyev A.Ə., Nuriyev C.Q., Mehdiyev S.M Bakı 2006).

Gömrük sərhəddindən keçən zaman, şəxslər həm qırmızı həm də yaşıl dəhlizdən istifadə edə bilərlər.	Qeyd edilən yaşıl və qırmızı dəhlizlərin növü və fəaliyyət müddəası Ümumdünya Gömrük Təşkilatının "İkikanallı sistem əsasında aviasərnişinlərə sadələşdirilmiş gömrük nəzarəti haqqında" olan prinsplərində nəzərə alınmışdır. Ölkə ərazində yaşıl dəhlizdən istifadə etməyə bir sıra şəxslərə müəyyən icazələr təqdim olunur ki, onların gömrük sərhədindən keçirtdiyi mallar heç bir ödənişlər alınmadan rəsmiyyət xarakterli tədbirləri aparılsın, bundan əlavə də ayrıca icazə tələb edilməsin və s. Bundan başqa isə digər durumlarda şəxslər növbəti dəhliz növü olan qırmızı dəhlizi seçmək məcburiyyətindədir. Həmçinin göstərilən bu dəhliz növlərindən hər hansı birinin seçilməsi qərarını şəxs özü verə bilər. Ancaq bunu da qeyd edək ki, yaşıl dəhlizə üstünlük verilib onun seçilməsi eləcə də ondan istifadə edilməsi bu dəhlizdən keçən şəxslərə gömrük yoxlanışının tətbiqinin mümkün olmamasını nəzərdə tutmur. Bu cür olduğu halda, gömrük nəzarəti diferensial formada aparılır, yəni ki mallara seçmə nəzarət tətbiq edilir (http://www.e-qanun.az/framework/32855 2016).

Gömrük nəzarətinin aparılmasının başlıcası yük gömrük bəyannaməsidir (YGB). Gömrük nəzarətinin aparılması prosesi bütünlükdə şərti olaraq beş mərhələyə ayrılır. İlk mərhələdə YGB-də göstərilən informasiyalara formal-məntiqi nəzarət reallaşdırılır. Buna görə yük şöbəsi tərəfdən bəyannamənin bütün qrafalarının doldurulmasının dəqiqliyi müayinə edilir, bəyan olunmuş gömrük rejimi və əmtəələrin adına uyğun olaraq gömrük nəzarəti məqsədilə tələb edilən rəsmi vəsiqələrin reallığı müəyyən olunur. Yük Gömrük Bəyannaməsinə müayinədən dərhal sonra nömrə təqdim edilir və aşkarolunmuş səhvliklərin düzəldilməsi üçün deklaranta geri qaytarılır. II mərhələdə yük gömrük bəyannaməsində göstərilmiş xarici məzənnədə ödəniş-hesablaşma əməliyyatları yoxlanış obyekti sayılır. Həmçinin XİF iştirakçısı tərəfdən valyuta nəzarəti qanunvericiliyinə riayət edilməsi yoxlanılır. III mərhələdə gömrük ödənişlərinin hesablanma düzgünlüyü, gömrük güzəştləri tətbiqi qanunauyğunluğu yoxlanılır, ödənişlərin gömrük idarələrinin hesabına daxil olmasına nəzarət olunur. Növbəti mərhələdə statistika bölməsi gömrük statistikası üçün vacib qrafaların dolmasını yoxlayır. Sonuncu mərhələdə

yük şöbəsinin rəsmi şəxsi əmtəənin gömrük yoxlaması haqqında qərar qəbul edir. Gömrük nəzarətinin mərhələlərinin hamısı sonlandırıldıqda vəsiqəyə "Buraxılışa icazə verilir"sözü yazılır (Nuriyev C.Q.,. Əliyev A.Ə,.Atakişiyev M.C. 2009).

Gömrük müşahidəsi - gömrük idarələrinin rəsmi şəxslərinin gömrük nəzarəti altında olan əmtəə və nəqliyyat vasitələrinin daşınmasına razılaşdırılmış vizual müşahidəsidir.

Gömrük müşahidəsi həyata keçirilə bilər:

- əmtəə və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi prosesində (məs. əmtəələrin daxili və beynəlxalq gömrük tranziti zamanı, gömrük qurumlarının izni ilə daxili və ya beynəlxalq gömrük tranziti zamanı reallaşdırılan gömrük müşahidəsi nəzarəti növü kimi);

- ölkəmizin gömrük məkanına şərti formada buraxılmış mal və nəqliyyat vasitələrinə qarşı (məsələn: gömrük anbarı rejimində saxlanılan eləcə də,emal üçün gətirilən).

**Şəkil 3: Gömrük nəzarətinin-gömrük yoxlamasının formaları**




**Mənbə: (**https://shturmpro.ru/az/medicina-i-sport/vyezdnaya-tamozhennaya-proverka-provoditsya-na-osnovanii.html 2020 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).

Gömrük baxışı - gömrük orqanlarının rəsmiləri tərəfindən ixtiyar verilmiş nümayəndəsi tərəfindən reallaşdırılan vizual baxış gömrük nəzarəti formasıdır ki, burada əmtəələrə, nəqliyyat vasitələrinə, fiziki şəxslərin yükünə, gömrük plombuna, yük həcminə, möhürə və başqa identifikasiya vasitələrinə, yük yeri açılmadan

əmtəələrin bağlanma, qablaşdınlmasına zərər vermədən həyata keçirilən vizual gömrük baxışıdır.

Mallara baxış təmsilçinin baxış aparılan obyektlərə hüququ olan başqa şəxslərin iştirakı ilə reallaşdırılır. Burada mal və nəqliyyat vasitələrinə baxış vaxtı maraqlı şəxslərin gömrük baxışında iştirakı üçün maraq göstərməməkləri isə istisnalıq təşkil edə bilər.

Tam gömrük baxışı - bu gömrük orqanının əməkdaşı tərəfindən həyata keçirilən gömrük nəzarəti növü olmaqla özündə plomb, möhür və başqa identifikasiya vasitələrini acmaq və malların qablaşmalarını, nəqliyyat vasitələrinin yük yerlərini, konteyner və başqa yerləri, açmaqla əlaqəli olan əməliyyatları əhatə edir. Bir sözlə, tam gömrük baxışı malların gömrük bəyannaməsinin qəbul olunmasından sonra həyata keçirilir.Yəni, gömrük bəyannaməsi hüquqi sənəd statusunu alır.

Bu hallar isə istisnalıq təşkil edir:

- AR gömrük məkanına gətirilmiş məhsulların identifikasiyası üçün bəyannamənin verilməsinə kimi tam gömrük nəzarəti (məsələn: daxili gömrük tranzitinin rəsmiləşdirilməsi halında);

- AR gömrük qanunvericiliyinin pozulmasının məlumatının müayinəsi üçün tam gömrük baxışı;

- seçmə müayinə əsasında gömrük baxışı.

Şəxsi tam baxış - gömrük baxışının bu müstəsna şəkli gömrük idarəsinin rəisi və ya onun müavininin qərarı ilə dövlət sərhədi ilə keçən beynəlxalq istiqamətlər üçün açıq olan həmçinin, aerovağzalın tranzit məkanında və ya gömrük nəzarəti məkanında olan fiziki şəxsin özündə və ölkəmizin ərazisinə idxalı və ya ixracı qadağan olunmuş məhsulu gizlətməsi barəsində gərəkli qədər informasiya olduğu təqdirdə aparılır.

Malların ayrıca markalarla markalanmasını və identifikasiya nişanlarının olub-olmamasını yoxlamaq - gömrük nəzarəti növü gömrük idarələri tərəfindən mallarda və onların qablaşdırılmasmda ayrıca marka, identifikasiya işarələrini və ya malların başqa işarələnmələrini müayinə üçün aparılır.

Bu cür gömrük yoxlamaları, gömrük nəzarəti altında olmayan məhsullara tətbiq olunur. Azərbaycan Respublikası Gömrük Məcəlləsinə müvafiq olaraq gömrük orqanları ölkəmizin gömrük məkanına gətirilən əmtəələrin dövriyyəsi müddətində gömrük nəzarəti aparırlar:

- AR Gömrük Məcəlləsinin müəyyən etdiyi tələb və şərtlərə müvafiq olaraq buraxılmasının gömrük orqanlan tərəfindən müayinə yolu ilə təsdiq edilməsi;

- əmtəələrin üzərində Azərbaycan gömrük məkanına gətirilməsi leqallığı istifadə olunan marka və identifikasiya işarələrinin olmasına nəzarət.

Məhsulların xüsusi markalarla markalanmasınm əsas məqsədi malların üzərindəki identifikasiya nişanları və başqa şəkildə malların işarələnməsi malların Azərbaycan gömrük məkanına gətirilməsinin leqallğınıı təsdiq etmək kimi qiymətləndirilir. Məsələn: spirtli içkilərin, tütün və tütün məhsullarının ölkənin gömrük məkanına gətirilməsi və onların azad dövriyyə üçün buraxılması aksiz markaları ilə markalanmadan keçir (onların dövriyyəsinə nəzarət məqsədilə).

Gömrük orqanlan tərəfindən (göstərilən gömrük nəzarətinin aparılması zamanı) müəyyən faktlar markalar və identifikasiya işarələrinin olmaması məhsulların AR gömrük rəsmiləşdirilməsindən keçirilmədən gətirilməsi kimi baxılır. Bina və məkanlara baxış belə gömrük nəzarəti növünün məqsədi, şərti buraxılmış müvəqqəti saxlama anbarları, rüsumsuz ticarət mağazalarında, gömrük anbarları, eləcə də fərdlərdə olan gömrük nəzarəti altında olan əmtəə və nəqliyyat vasitələrini müəyyən etməkdir. Gömrük orqanlannın rəsmiləri tərəfindən bina və yerlərə vizual baxışın keçirilməsi əmtəə və nəqliyyat vasitələrin harada olmaları və yaxud da ola biləcəklərini öyrənməkdir.

Gömrük təftişi - gömrük idarələri vasitəsilə reallaşdırılır, malların buraxılma faktlarını, məcəllədə göstərilən informasiyaları, eləcə də başqa məlumatların düzgünlüyünün müəyyən edilməsidir. Ümumi və xüsusi gömrük auditi yalnız hüquqi şəxslər, fərdi sahibkarlar, və xarici iqtisadi fəaliyyət iştirakçılarına tətbiq edilir. Bu iki gömrük təftişinin yekunları iki nüxsədən ibarət aktla qeyd olunur (Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C. 2009).

Əmtəə və nəqliyyat vasitələrinin gömrük nəzarətində yerləşməsi vaxtı birbaşa seçilən gömrük rejimindən asılıdır. Əgər əmtəə azad dövriyyəyə buraxılış üçün bəyan olunarsa, bu vaxt günlərlə ölçülür, əgər gömrük anbarı rejimində bəyan olunarsa, bu zaman üç ilə qədər ola bilir. Belə olduqda gömrük nəzarətinin vaxtı da də rejim bitənə kimi uzadılır.

Mal və nəqliyyat vasitələrinin gətirilməsi müddətdə gömrük nəzarətinin girişi ölkənin gömrük sərhəddini keçdiyi an hesab olunur. Mal və nəqliyyat vasitələrinin aparıılması anı gömrük nəzarəti– gömrük bəyannaməsinin verildiyi müddətdən başlanılır

Gömrük nəzarətinin başa çatma müddətini GM-nin bir sıra bəndləri müəyən edir. Bu məcəllədə nəzərdə tutulmuş hallar istisna olunmaqla, əmtəə və nəqliyyat vasitələri buraxıldığı vaxtdan gömrük nəzarəti sona çatır.

Gömrük Məcəlləsinin 84-cü maddəsinə əsasən aşağıdakılar yoxlanışa cəlb olunmur:

1) Ölkə başçısının eləcə də onla birgə ailəsinin şəxsi baqajları;

2) Səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı baş nazir və nazirin müavinlərinin, icra hakimiyyəti idarələrinin başçılarınn, Milli Məclisinin deputatlarının və AR İnsan hüquqları üzrə ombudsmanın şəxsi baqajları (Gömrük Məcəlləsi maddə 84 2019)

Ölkənin gömrük sərhədindən keçirilən məhsullara görə "Gömrük tarifi barədə" AR normativ-hüquqi aktına müvafiq gömrük rüsumu tətbiq olunur. GM, həmçinin "Gömrük tarifi barədə" normativ akta əsasən, bu ödənclər- əmtəələrin gömrük məkanına gətirilməsi o cümlədən, bu məkandan çıxarılması anında gömrük idarələri vasitəsilə toplanan gömrük ödənclərinin bir kateqoriyası sayılır.

Müvafiq hüquqi-normativ aktlar ilə müxtəlif gömrük ödənişləri alınır: gömrük rüsumu, ədv, aksizlər, dövlətin gömrük fəaliyyətini həyata keçirən icra hakimiyəti idarəsi vasitəsilə müəyyən olunmuş bir sıra icazələrin təqdim edilməsi və yenilənməsi üçün ödənişlər, gömrük orqanları tərəfindən rəsmiləşdirilməyə görə ekspertlərə ixtisas attestatlarının təqdim olunması o cümlədən, yenilənməsinə görə yığımlar, gömrük rəsmiləşdirilməsi üçün yığımlar, malların saxlanılmasına görə

ödənişlər, məhsulların gömrük müşayiətinə görə yığımlar, gömrük hərraclarında iştiraka görə ödəmə və başqa gömrük ödənişləri.

Gömrük rüsumları bütün sərhədboyu dövriyyəyə aid olunur. Müəyyən mallar kateqoriyasından, mənşə ölkəsindən, bəyan olunmuş gömrük rejimindən asılı olaraq bir sıra mallar gömrük rüsumlarından azad olunur. Əgər hər hansısa mal gömrük tarif qanunvericiliyinə müvafiq gömrük rüsumuna cəlb edilmirsə, o zaman həmin məhsul nəzərdə tutulmuş haqqı ödədikdən sonra gömrük sərhədini keçə bilər. Gömrük rüsumları bütün başlıca vergi xarakteristikasını əhatə etmiş olur:

a) bu ödənişlərin ödənilməsi də məcburilik xüsusiyyəti daşıyır həmçinin dövlət hakimiyyət məcburiyyəti ilə təmin olunur;

b) bu rüsumlar edilmiş xidmətin əvəzi kimi deyil və bütünlükdə qarşılıqsız alınır;

c) gömrük ödənişləri zamanı daxilolmalar konkret olaraq hökümət xərclərini ödəmək üçün nəzərdə tutulmamışdır (Vəliyeva G.M 2020).

Bu rüsumlar tətbiq edilən şəxs bəyannaməçidir. Bəyannaməçi gömrükdən keçirilən əmtəə və nəqliyyat vasitələrini öz adından gömrüyə bəyan edəndir. Gömrük rüsumu tətbiq olunan predmet isə onun gömrük dəyəri, gömrük hüdudundan aparılan məhsulların miqdarları eləcə də ikisi də birgə ola bilər.

Gömrük rüsumlarının sonrakı hissəsi onun dərəcəsi sayılır. “Gömrük tarifi barəsinndə” Qanununa görə, bu rüsumların dərəcələri Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Göstərilən qanunda qeyd olunmuş hallar istisna edilməkə, rüsum stavkaları respublikanın gömrük hüdudundan məhsul aparan hüquqi və fiziki fərdlərdən, razılaşma formalarından və ya başqa faktorlardan asılı olaraq dəyişdirilə bilməz (Aslanov H. 2018).

Vergi sistemindəki kimi, burada da müəyyən güzəştlər tətbiq edilirr. Bunlar tarif güzəştləridir. Tarif güzəştləri – respublikanın ticarət siyasəti aparılarkən qarşılıqlı və birtərəfli şəkildə dövlətin gömrük sərhədindən keçirilən əmtəələr üzrə əvvəl ödənilmiş olan rüsumun geri qaytarılması, rüsum ödənişini ləğv etmək, rüsum dərəcələrinin azaldılması, əmtəənin preferensial gətirilməsi və ya aparılması üçün tarif kvotaları formasında verilən güzəştlər sayılır.

Cəlbolunma amillərinə görə gömrük rüsumları iki yerə idaxl və ixarca bölünür. İdxal rüsumları dövlətin yerli bazarını xarici rəqabətdən müdafiə etdiyi zaman proteksionist funksiyanı yerinə yetirir. Bu zaman yalnız idxal mallarının yox, həm də milli malların qiyməti dünya qiymətləri dərəcəsinə kimi qalxır. İxrac rüsumları isə gömrük-tarif tənzimlənməsinin reallaşdırılmasında birinci səviyyəli rol aparır. İEOÖ-də idxal rüsumlarının böyük olmasının başlıca səbəbi ölkə sənayesini kənar rəqabətdən müdafiə etməkdir. Ölkəmiz də öz sənaye sektorunu xarici ölkələrin rəqabətindən müdafiə etmək məqsədi ilə bu metoddan istifadə edir. Dövlətlərin iqtisadi inkişafı ilə idxal rüsumlarının həcmi tərs mütənasiblik təşkil edir (Şəkərəliyev A.Ş, Nuriyev C.Q., Əliyev A.Ə., Şəkərəliyeva Z.A. 2018 ).

**Cədvəl 1: Gömrük rüsumlarının büdcə daxilolmalarında dinamikası. (mln. manat)**

| Göstəricilər | 2008 | 2010 | 2012 | 2014 | 2016 | 2018 |
|---|---|---|---|---|---|---|
| Gömrük, vergi və rüsumlarının cəmi (mln. manat) | 845,0 | 1101,0 | 1119,0 | 1510,0 | 2291,0 | 3430,0 |
| Gömrük rüsumları (mln. manat) | 232,0 | 213,0 | 225,0 | 362,0 | 596,0 | 821,0 |
| Gömrük rüsumlarının DGK tərəfindən büdcə daxilolmalarındakı xüsusi çəkisi (%) | 27.4 | 19.3 | 20.1 | 23.9 | 26.01 | 23.9 |
| Gömrük rüsumları dövlət büdcəsində xüsusi çəkisi (%) | 3.13 | 2.12 | 1.3 | 1.9 | 3.5 | 4.07 |

**Mənbə:** (DGK-nin rəsmi məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır 2020 https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/)

“Dövlət büdcəsi barədə” ölkənin normativ aktı ilə müəyyənləşdirilmiş illik formada dövlət büdcə proqnozu ilə nisbətdə ölkə büdcəsinə iki milyard AZN-dən çox ödənişlər daxil olmuşdur. 2019-cu il ərzində DGK üzrə hüquqi-normativ sənədlərlə təsdiq olunmuş 3 mlrd. 702 mln. AZN məbləğində öhdəliyə 11 ayda 4 mlrd. 6 mln. AZN məbləğində ödənclər yığılararaq ölkə büdcəsinə köçürülmüşdür və proqnoza 611 mln. 610 min AZN yaxud 118,02 % əvvəlki dövrün mövcud statistikasına müqayisədə 753 mln. 300 min AZN yaxud 23,2 % büdcəyə artıq

ödənişlər reallşadırılıb (https://azvision.az/news/198741/-budceye-2-milyard-manat-artiq-vesait-kocurulub--sefer-mehdiyev---.html 2019).

2016-2020-ci illər arasında ölkəmizin xarici ticarət dövriyyəsi ən yükəsk göstəricisi 2019-cu ildə 33 302 818.24 min ABŞ dolları təşkil etmişdir. 2016-cı ildən 2019-cu il də daxil olmaqla xarici ticarət dövriyyəsinin artan dinamiki müşahidə olunur.Yalnız 2020-ci ildə bu rəqəm 24 471 287.85 min ABŞ dollarına enmişdir. Bu illər ərzində aparılan idxal- ixrac əməliyyatları nəticəsində ən yüksək müstbət saldo 2018-ci ildə 7 993 662.43 min ABŞ dolları məbləğində qeydə alınmışdır. Bu il ərzində idxal 11 464 970.08 min dollar, ixrac 19 458 632.51min ABŞ dolları miqdarında olmuşdur.

**Diaqram 1: Azərbaycan Respublikası 2016-2020 ci illər ərzində xarici ticarət dövriyyəsi (mlrd. ABŞ dollar)**




**Mənbə:** (Statistika Komitəsinin rəsmi statistik göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır https://www.stat.gov.az/source/trade/ 2021)

**Diaqram 2: Azərbaycan Respublikası 2016-2020 ci illər idaxl-ixrac dinamikası (mlrd.ABŞ dollar)**




| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| İdxal | 8.4 | 8.7 | 11.4 | 13.6 | 10.7 |
| İxrac | 13.1 | 13.8 | 19.4 | 19.6 | 13.7 |

**Mənbə:** (DGK-nin rəsmi məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır 2021 https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda/)

**Diaqram 3: Azərbaycan Respublikası 2016-2020 ci illər xarici ticarət saldosu (mlrd ABŞ**

**dollar)**




**Mənbə:** (Dövlət Gömrük Komitəsinin rəsmi məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır 2021 https://customs.gov.az/modules/pdf/pdffolder/93/FILE_E7B3B9-B46FB9-AA0331-12CB1C-A0451C-E46BD4.pdf)

Azərbaycan Respublikası dövlət büdcəsinə gömrük ödənişləri vasitəsi ilə müxtəlif illərdə vəsaitlər cəlb edilmişdir.

**Cədvəl 2: 2016-2020-ci illər ərzində büdcə daxilolmaları (min AZN)**

| Gömrük ödənişləri (min man) | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Rüsumlar | 600 208.37 | 706 874.34 | 883 150.80 | 1 109 478.47 | 1 016 609.00 |
| ƏDV üzrə | 1 515 252.82 | 1 773 189.74 | 2 340 784.50 | 3 004 082.15 | 2 741 485.00 |
| Aksizlər üzrə | 92 894.26 | 93 923.40 | 169 964.90 | 249 632.58 | 143 511.10 |
| Yol vergisi | 83 242.06 | 34 792.13 | 40 161.80 | 45 431.64 | 36 637.10 |
| Cəmi | 2 291 597.51 | 2 608 779.61 | 3 434 062.00 | 4 408 624.84 | 3 938 242.20 |

**Mənbə**: (Gömrük orqanlarının statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır 2021 https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/)

**Diaqram 4: Gömrük ödənişləri statistikası (mlrd AZN)**




**Mənbə:** ( Gömrük orqanlarının statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.2021https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/)

Yuxarıdakı cədvəllərdən görünür ki,büdcə daxilolmaları üzrə ən yüksək göstərici 2019-cu ilə təasdüf etmişdir. Bu ilə gömrük xətti ilə büdcəyə 4 408 624.84 manat vəsait cəlb olunmuşdur. 2020-cı ildə Dövlət Gömrük komitəsi tərəfindən büdcə daxilolmaları ən çox aprel ayına 356862.2 manat təsadüf etmişdir.Gömrük rüsumları üzrə ən yüksək göstərici dekabr ayında 103613.2 manat olmuşdur.ƏDV üzrə isə yenə apreldə 272702.5 manat, aksiz vergisi ən çox dekabr ayında 153381.7 manat, yol vergisi yanvar ayında 3755.6 manat təşkil etmişdir. Beləliklə, 2020-ci il də gömrük xətti vasitəsi ilə dövlət büdcəsinə 3 milyard 938,2 milyon manat məbləğində pul vəsaiti köçürülmüşdür. 2020-ci ildə toplanan bu vəsait isə 2019-cu ilə nisbətən 470,4 milyon eləcə də 10,7 faiz azlıq təşkil edir.

Bundan əlavə 2020-ci ildə dövlət büdcə daxilolmalarında minumum götərici avqustda olmuşdur. Qeyd olunan bu ildə büdcəyə 285 milyon 263,5 min vəsait köçürülüb. Ölkədə ötən dövr ərzində isə büdcə daxilolmaları üzrə maksimum göstərici aprel ayına təsasdüf etmişdir. Qeyd edilən bu ayda büdcəyə 356,9 milyon manat pul vəsaiti köçürülmüşdür. Həmçinin 2019-cu ildə ölkənin gömrük xətti vasitəsilə dövlət büdcəsinə 4 milyard 408,6 milyon manat vəsait daxil olmuşdur.

**Diaqram 5: Azərbaycan Respublikasında Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi büdcə daxilolmaların miqdarının müqayisəli gedişi**




**Mənbə:** (DGK rəsmi saytı əsasında müəllif tərəfindən hazırlanmışdır http://customs.gov.az/az/faydali/gomruk-statistikasi 2020)

Gömrük rüsumlarının mövsümi, xüsusi, antidempinq və kompensasiya rüsumları kimi növləri var. Mövsümi rüsumlar əmtəələrin ixracını və idxalını optimal tənzimləmək üçün müəyyən məhsullara tətbiq edilən rüsum növləri sayılır.

Qeyd olunan bu növ rüsumlarda gömrük tarif tənzimlənməsində qeyd edilən rüsum dərəcələri icra edilir. Onu da qeyd edək ki, bu kimi rüsumlar altı aydan çox qüvvədə olmur. Digər rüsum növü olan xüsusi növ rüsumlar isə aşağıdakı zaman tətbiq olunur:

1. mallar gömrük məkanına eyni malların milli istehsalçılarına zərər vuracaq həcmdə o cümlədən bir sıra müəyyən şərtlərlə daxilində ölkəyə gətirildikdə, müdafiə olunmas üsulu kimi;

2. bir sıra ölkələrin həmçinin ittifaqlarının Azərbaycanın Respublikasının sosial-iqtisadi mənafelərinə toxuna biləcək ayrı-seçkilik eləcə də başqa vəziyyətlərə cavab vermək üçün.

Antidempinqr rüsumları. Xarici bazarlarda malların istehsal xərclərindən daha da az qiymətlə satılması deməkdir. Bu rüsumlar idxal olunan əmtəələrin qiyməti gömrük məkanına gətirildiyi zaman ixrac olunduğu dövlətdəki həqiqi dəyərindən çox aşağı olduqda və bu cür idxal eyni əmtəələrim milli istehsalçılarına zərər verdikdə, ölkədə onların istehsal prosesinin təşkil olunmasına həmçinin yayılmasına bir sıra əngəlllər yaratdığı zaman icra olunur.

Kompensasiya rüsumları. Azərbaycan Respublikasının gömrük məkanına gətirilmiş olan məhsulların ixrac olan ölkəsində istehsalı, həmçinin, qeyd edilən bu ölkədən ixrac olunması vaxtı birbaşa eləcə də dolayı subsidiya-nlardan yaralandıqda və bu cür idxal bu kimi malların milli istehsalçılarına zərər vermək təhlükəsi yaratdıqda, bu məhsulların istehsalının təşkilinə və artırılmasına əngəl yaratdıqda tətbiq edilir (Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. Bakı 2015).

Əmtəələrin, işlərin, xidmətlərin istehsalı prosesində formalaşan o cümlədən, onlar hər satıldıqca büdcəyə keçirilən dəyər yüksəlişinin müəyyən bir payının büdcəyə ödənilməsi forması əlavə dəyər vergisidir (ƏDV).

Bildiyimiz kimi, bir sıra mallar müəyyən xərclər hesabına formalaşır və malın maya dəyərini təşkil edir. İstehsalçı isə, bu maya qiymətinin üzərinə gəlirini əlavə edərək daha da dəyərli qiymətə satış həyata keçirir. Belə olduqda mala əlavə dəyər vergisi qoyulmazsa və mal ucuz qiymətə satışı reallaşarsa, bu zaman məvacib ödənilməz, eləcə də əlavə gəlir də əldə edilməz, sonunda isə malın istehsal

edilməsinə heç bir maraq qalmaz. Əlavə dəyər vergisi də malın dəyərinə qoyulmuş dəyərdən tutularaq həyata keçirilir bunsan sonrakı mərhələdə büdcəyə ötürülür. Bu vergi növü satış müddəti formalaşdığı üçün alıcının üzərnə yük düşmüş olur. Ölkə ərazisinə gətirilən məhsullara əlavə dəyər vergisinin tətbiqi iki başlıca fəaliyyət dairəsini yerinə yetirmiş olur:

- XİF-in tənzimlənməsi, yerli bazarda milli və idxal məhsullarının arasında olan rəqabətin optimal şəkildə tənzimlənməsini;

- ölkə büdcə daxilolmalarının gəlir payını doldurmaq məqsədilə fiskal funksiyanı

Ödənilməli olan Əlavə Dəyər Vergisi göstərilən düstur ilə hesablanır:

$$ƏDV = (MGD + GR + A). ƏDVd\ 100$$

Əlavə Dəyər Vergisi - ödənilməli olan əlavə dəyər vergisinin həcmi, MGD – məhsulun gömrük dəyəri sayılır, GR - gömrük rüsumu, A - aksiz; ƏDVd – istənilən məhsul üçün müəyyən edilmiş ƏDV-nin kəmiyyəti.

“Azərbaycan Respublikasının Vergilər məcəlləsinin 184-cü maddəsinə əsasən idxal məhsulları üçün aksiz vergilərini AR Gömrük Məcəlləsinə müvafiq olaraq gömrük orqanları toplayır. İdxal məhsulları üçün aksiz vergisinin kəmiyyəti Azərbaycan Respublikası GM müvafiq olaraq müəyyən olunur. (Məcəlləyə əsasən aksiz vergisinin dərəcəsi AR Nazirlər Kabineti tərəfindən müəyyən edilir), amma topdan satış bazar qiymətindən az olmayan məhsulların gömrük dəyəridir.

Ümumi normalara əsasən aksizlərin ödəyiciləri deklarantlardır. Ödəniş Yük Gömrük Bəyannaməsini (YGB) verməzdən əvvəl və yaxud təqdim edəndə reallaşdırılır. Gömrük qanunvericiliyinə əsasən müəyyən hallarda gömrük anbarının sahibi, gömrük daşıyıcısı və digərləri ola bilər.

ƏDV hesablanarkən verginin həcmi gömrük rüsumlarının həcmi qədər, aksizli məhsularda isə aksizlərin ümumi kəmiyyəti qədər yüksəlir. Gömrük rüsumlarının və toplanması gömrük orqanlarına həvalə olunmuş vergilərin hesablanması idxal edilən məhsullara əlaqədə gömrük hüdudunu keçən gündən, ixrac edilən məhsullara əlaqədə, məhsullara aid olan bəyannamənin verildiyi tarixdən başlamalıdır, o

cümlədən məhz həmin vaxt mövcud gömrük rüsum və vergilər əsas götürüülməlidir (Sadıqov T.Ə., Rzayev İ.M. 2014).

Ölkədə valyuta nəzarətini aparan hökümət idarələrindən biri də gömrük orqanları sayılır. Qeyd edilən bu orqanlar gömrük fəaliyyəti ilə əlaqədar olaraq valyuta yoxlanışını qüvvədə olan Gömrük Məcəlləsinə həmçinin, "Valyuta tənzimi haqqında" AR Qanununa müvafiq olaraq reallaşdırır.

Qeyd edilən bu orqanlar azad iqtisadi zonaların uzunluqları cəmi istisna edilməklə, gömrük hüdudundan bir sıra fərdlər vasitəsi ilə AR yerli valyutasının, eləcə də yerli valyutada olan qiymətli kağızların və başqa valyuta sərvətlərinin aparılmasına, həmçinin, gömrük sərhədindən əmtəələrin və nəqliyyat vasitələrinin aparılması ilə bağlı valyuta əməliyyatları üzrə qanunda nəzərdə tutulmuş formada valyuta nəzarətini aparırlar .

Xarici valyutanın ölkəyə gətirilməsi və ölkədən aparılması qaydaları - Rezident və rezident olmayan fiziki və hüquqi şəxslər xarici valyutanı gömrük qanunvericiliyinə riayət etməklə məhdudiyyətsiz Azərbaycan ərazisinə gətirə bilərlər.

Rezident və rezident olmayan fiziki və hüquqi şəxslər xarici ölkələrin valyutasını ölkədə gömrük idarəsində şifahi bəyan etməklə ölkə məkanından nağd qaydada apara bilərlər (10000 ABŞ dollarına kimi).

Bundan əlavə rezident və rezident olmayan şəxslər 10000 dollar məbləğindən 50000 dollar ekvivalenti həcmə kimi olan xarici dövlətlərin valyutasını ölkəyə nağd formada gətirilməsini təsdiqliyən gömrük orqanlarının rəsmi sənədlərini eləcə də yazılı qaydada olan gömrük bəyannaməsini orqana verməklə ölkədən nağd formada çıxara bilərlər.

Yerli valyutanın ölkəyə gətirilməsi eləcə də, ölkədən aparılması qaydalar - Rezident və rezident olmayan hüquqi şəxslər nağd şəkildə milli valyutanı, yerli valyutada ifadə edilmiş qiymətli kağızları və yerli valyutada ifadə edilmiş yubiley və xatirə pul nişanlarını nominal həcmindən asılı olmayaraq gömrük orqanlarına bəyan etməklə, Azərbaycandan apara və gətirə bilərlər.

Rezident və rezident olmayan fiziki şəxslər 20000 manat civarınadək olan nağd yerli valyutanı və yerli valyutada ifadə edilmiş qiymətli kağızları gömrük orqanlarına şifahi şəkildə bəyan etməklə, 20000 manat və ondan çox miqdarda olan nağd milli valyutanı və milli valyutada ifadə olunmuş qiymətli kağızları gömrük orqanlarına yazılı qaydada bütöv məbləğdə bəyan etməklə, ölkədən çıxara və gətirə bilərlər.

Rezident və qeyri-rezident fiziki şəxslər yerli valyutada ifadə edilmiş yubiley və xatirə pul nişanlarını nominal həcmindən asılı olmayaraq gömrük orqanlarına yazılı qaydada bəyan etməklə Azərbaycan Respublikasından apara və Azərbaycana gətirmə planları mümükündür (Rzayev E. 2019 ).

Valyuta nəzarətinin əsas məqsədi valyuta əməliyyatlarında valyuta normalarına əməl edilməsinin təmin olunmasıdır. Valyuta nəzarətinin başlıca istiqamətləri:

- həyata keçirilən valyuta əməliyyatlarının qüvvədə olan qanunlara müvafiq olması və tələb edilən iznlərin alınması;

- rezidentlərin ölkə qarşısındakı öhdəliklərinin və qazanılmış xarici valyutanın milli valyuta bazarlarında satışı öhdəliyinin yerinə yetirilməsinin müayinəsi;

Ölkənin gömrük sərhədindən aparılan valyuta dəyərlilərinə nəzarət funksiyası ənənəvi xüsusiyyətli olub, o zamanlar da gömrük orqanlarının mühüm funksiyalarına daxil idi (https://www.taxes.gov.az/az/post/326 2012).

Ölkə ərazisində valyuta vəsaitlərinin ödənişinə nəzarət bir sıra mərhələdə aparılırr.

- Başlanğıc müayinə forması. Yük Gömrük Bəyannaməsinin dəqiq və düzgün doldurulmasına eləcə də göstərilmiş informasiyaların düzgünlüyünə nəzarət, reallaşdırılan sövdələşmənin normativlərə müvafiqliyinə nəzarət, hesabatların yaradılması və Komitəyə təqdim olunması;

- İnformasiya analitik nəzarət. Gömrük orqanlarından əldə edilən informasiyaların müayinəsi, valyuta nəzarəti, uçot kartoçkasının yazılması və razılaşma üzrə hesablaşmaları aparmış müvəkkil banklara ötürülməsi, bank tərəfindən rəsmiləşdirilmiş kartoçkaların əldə edilməsi və istifadəsi (təhlili).

- Bitkin sənədli müayinə forması. Valyuta vəsaitlərinin köçürülməsində mümkün saylıla biləcək uyğunsuzluqlara nəzarət, GM ilə müəyyən olunmuş sanksiyaların tətbiqi olunması. Bu cür nəzarət sistemi şərait yaradır ki, bütün valyuta əməliyyatlarının normativlərə müvafiq olmasına nəzarət olunsun, geri qaytarılmamış valyuta qazancının miqdarı dəyərləndirilə bilsin, ödənişin şərtləri müəəyən formaya salınsın, gömrük idarələrinin və bankların optimal informasiya mübadiləsi tam təmin olunsun, valyuta nəzarəti hədəfləri üçün bank və gömrük orqanlarının potensialından maksimum şəkildə istifadə olunsun (Şəkərəliyev A.Ş., Nuriyev C.Q.,.Əliyev A.Ə,.Şəkərəliyeva Z.A. 2018 ).

Konsiqnasiya yolu ixrac əməliyyatları xarici şəxslərlə imzalanmış sazişlərə görə, ölkə sərhədlərindən xaricdə satışı gömrük idarələrində bəyan olunduğu gündən 180 günə kimi müəyyən edilməklə məhsulların ixracını nəzərdə tutur.

Barter əməliyyatları, dəyəri ödənilmədən bərabər həcmdə qarşılıqlı əmtəə mübadiləsini nəzərdə tutur. Burada ekvivalent məbləğdə məhsulların göndərilməsi və alınması vaxtı 90 günədək müəyyən edilir.

Azərbaycan Respublikasında Dövlət müəssisələri eləcə də Nizamnamə fondunda ölkənin pay haqqı 50 %-dən çox sayılan təşkilatlar vasitəsi ilə razılaşdırılmış barter sazişləri İqtisadiyyat Nazirliyində qeydiyyatdan keçirilməklə, başqa təşkilatlar tərəfdən bağlanmış barter razılaşmları isə, gömrük orqanlarında bəyan olunmaqla reallaşdırılır.

Kreditə ixrac əməliyyatları, faktiki məhsul ixracından sonra ödənişi bir sıra amillər ilə və müəyyən vaxt müddətində ödəniləcək məhsulların ixracını əsas götürür. Hökümət idarələri və Nizamnamə fondunda ölkənin payı 50 faizdən çox olan təşkilatlar tərəfdən məhsulların kreditə ixracı üzrə bağlanmış sazişlər İqtisadiyyat Nazirliyində qeydiyyatdan keçirilməklə həyata keçirilir. Başqa ixracatçılar tərəfdən əmtəələrin kreditə ixracı isə, gömrük idarələrində bəyan olunmaqla aparılır. Belə oldquda, respublikanın dövlət təşkilatlarında istehsal edilmiş məhsulların dəyəri istehsalçıya tam ödənildikdən sonra ixrac edilə bilər.

Müvəqqəti ixrac əməliyyatları, xarici dövlətlərdə xidmət göstərilməsi, lizinq əməliyyatlarının reallaşdırılması, sərgilərdə iştirak məqsədilə əmtəələrin təkrar

işlənməsi AR-na geri qaytarılması şərtilə ixracını nəzərdə tutur. Hökümət orqanlarının təşkilatları vasitəsi ilə müvəqqəti olaraq göndərilmiş məhsullara əsasən həyata keçirilmiş razılaşmalarda nəzərdə tutulan vaxt başa çatdığı gündən bu mallar 30 gün ərzində ölkəyə qaytarılmalıdır.

Dövlət idarəsi olmayan ixracatçı tərəfindən isə, müvəqqəti ixrac edilmiş məhsullar bu təlimata və dövlətin başqa nomativ aktlarına müvafiq olaraq uyğun rüsumlar ödənilməklə istifadə edildiyi dövlətlərdə satıla bilər. Bu zaman valyuta vəsaitləri əmtəələr satıldığı gündən 10 gün ərzində ixracatçının AR-da müvəkkil bankdakı hesabına daxil olunmalıdır.

Sonuncu, yəni sənədli nəzarət-gömrük rəsmiləşdirilməsi bitdikdən sonra həyata keçirilir. Gömrük idarəsinin yük bölməsinə ixracatçı vasitəsilə verilən dokumentlər rəsmi hala salınaraq Maliyyə -Tarif bölməsinə təqdim edilir (İbrahimov A. 2019)

İxracatçılar tərəfindən ixrac edilən məhsulların ölkə məkanından aparılması gömrük orqanları tərəfindən ancaq onların ödənişinin əvvəlcədən ödənildiyi qaydada həmçinin, geri qaytarılmayan olan akkreditiv təşkil olunması müvəkkil sayılan banklar tərəfdən "Uçot kartoçkası" əsas A1 və eləcə də A2 hissələrində qeyd olunmaqla təsdiqdən sonrakı mərhələdə reallaşdırılır. Bununla bərabər ixracatçı şəxslər vasitəsi ilə həyata keçirilən bu kimi əməliyyat xaraketrli fəaliyyətlərin hesablaşmalar bölməsi müvəkkil bankların, məhsulların gömrük hüdudundan aparılması dövlət gömrük idarələrinin müayinəsi altında aparılır. "Azərbaycan Respublikası İnzibati Xətalar" Məcəlləsinin 262-ci maddəsində qeyd olunanlara əsasən, xarici valyuta sayılan vəsaitlərin xarici ölkədən geriyə alınmaması inzibatı sayılan xətaların birbaşa obyekti sayılan əmtəə və yaxud nəqliyyat növlərinin qiymətinin 5 faizdən 50 faizədək məbləğdə cəza növü tətbiq olunur.

NK-nin 2002-ci il aprel ayınının 10-u tətbiq edilən "Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycana gətirilməsi və çıxarılması" normaları "Valyuta tənzimi" ölkə qanununa müxtəlif formada əlavələr və dəyişikliklər olunması haqqında" AR Qanununa, GM-nə uyğun olaraq yaradılmış və fərdlər vasitəsilə valyuta qiymətlilərinin ölkəyə nağd formada qətirilməsi eləcə də nağd formada

çıxarılması normalarını müəyyənləşdirir (Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C. 2009).

Ölkədə fəaliyyət göstərən gömrük sisteminin tənzimlənməsinin əsasını təşkil edən GM-nin (17-ci maddə 1-ci bənd) əsasən, "Gömrük idarələri gömrük fəaliyyəti sahəsində cinayətlər və hüquq pozulmalar üzrə fəaliyyətlər üçün təhqiqat və istintaq idarələridir" (Gömrük Məcəlləsi 17-ci maddə 2019).

Gömrük orqanları icraedici orqan kimi, ali dövlət orqanlarının qərarlarını icra etmək məqsədilə, gömrük fəaliyyəti ilə bağlı normativ aktlar vermə hüququna sahibir. Nəzərdə tutulan normativ-hüquqi aktlar əmtəə və nəqliyyatların, həmçinin, fiziki şəxslərin gömrük sərhədini keçməsi ilə bağlı təqdim olunur ki, bu da gömrük orqanlarının inzibati-hüquqi işində fəal iştirak etməsi sayılır.

XİF-in tənzim etməsində iştirak etmək hüququ olan gömrük orqanları, AR və başqa ölkələr arasında əmtəə və xidmətlərin mütərəqqi hərəkətini reallaşdırır, iqtisadi, siyasi, sosial və başqa problemlərin həll olunmasını həyata keçirir. Nəticədə gömrük orqanları məcəllədə "Gömrük tarifi haqqında" AR normativ-hüquqi aktında, başqa qayda eləcə də norma qüvvəsində olan fərman, sərəncamlarda qeyd edilən bir sıra funksiyaları reallaşdırır (İbrahimov T. 2017).

Buna baxmayaraq, hər zaman, XIF iştirakçıları hüquqi qaydaların yerinə yetirilməsinə səy göstərmir. Bir sıra şəxslər qəsdən və ya bilməyərəkdən bu qaydaları pozurlar ki, dövlət idarələri da zəruri tədbirlər görməyə məcbur qalır və onlara verilmiş mühafizə səlahiyyətini yerinə yetirərək, bu hüquq pozuntuların qarşısını alır.

Ölkəmizdə fəaliyyət göstərən gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti müəəyən kateqoriyalarda reallaşdırılır: inzibati-hüquqi, inzibati-prosessual, cinayət-hüquqi,cinayət-prosessual və əməliyyat -axtarış.

Azərbaycan Respublikasının gömrük qayda-qanunlarının pozulması şəxsin etdiyi qanunsuz hərəkətləri həmçinin hərəkətsizliyi zamanı normaların pozulması inzibati-hüquqi və inzibati prosessual formalarıdır:

1) ilk öncə əmtəə eləcə də nəqliyyat vasitəsinin ölkənin gömrük sərhədini keçməsilə əlaqəli pozulma;

2) onlara tətbiq edilən gömrük yoxlanışıla bağlı;

3) əmtəə və nəqliyyat növlərinin gömrük orqanları tərəfindən rəsmiləşdirilməsi əlaqədar;

4) gömrük ödənclərinin tətbiqi və ödənişi ilə bağlı;

5) müəyyən güzəşt tədbirlərinin həyata keçirilməsi həmçinin onlardan istifadə ilə əlaqəli pozulmalar (Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C .2009).

Hüquq pozuntularının əlamətləri sayılan - subyektlər, obyektlər və subyektiv tərəflər tamlıqla gömrük normalarının pozulmasının tərkibi sayılır. Gömrük idarələri vasitəsilə qanunvericiliyə qarşı inzibati xətalar üzrə icraatın həyata keçirilməsi, bu işlərə nəzər yetirilməsi həmçinin inzibati xətalar etməyə görə qoyulan inzibati tənbehin formaları eləcə də həmin müddət reallaşdırılan xoşagəlməz fəaliyyətlər AR-nın İnzibati Xətalar Məcəlləsi həmçinin başqa normativ qanunlarla tənzim olunur (Gömrük Məcəlləsi, maddə 18 2019).

"Azərbaycan Respublikasının İXM" "Azərbaycan Respublikasının İXM-nin təsdiqi, qüvvəyə minməsi və eləcə də bununla əlaqəli hüquqi tənzimləmə barəsində" ölkə qanununun tətbiq olunması haqqında Heydər Əliyevin 2000-ci il 29 avqust tarixi Fərmanı ilə 2000-ci il sentyabr ayının 1-i qüvvəyə minmişdir.

Ölkədə əsas qanunverici aktlardan olan İXM-nin 23-cü maddəsində görə bir sıra müəyyən inzibati tənbehlər vardır: 1) ilkin xəbərdarlıq; 2) inzibati cərimənin tətbiq edilməsi; 3) mülkün əvəzi ödənilmə şərti ilə alınması; 4) daha sonra mülkün müsadirə olunması; 5) ölkə sərhədlərindən xaricə inzibati formada çıxartma; 6) inzibati həbs.

Gömrük normalarının pozulması ilə bağlı rəsmi şəxslərin, eləcə də, təşkilatların, hüquqi şəxs formalaşdırmadan sahibkarlıq işi görən şəxslərin inzibati hüquqi məsuliyyətə cəlb edilməsi fəaliyyətinə ölkə gömrükxanaları baxır. Bundan başqa regional sayılan gömrük müəssisələri qanunlarının pozulması ilə bağlı hər bir işə baxa eləcə də, bu işlə əlaqəli bütün şəxsləri məsuliyyətə cəlb edər. DGK hər hansısa bir işi icraata qəbul edə bilər və ya istədiyi gömrük idarəsinə həvalə edər. Mövcud olan normativə görə, fiziki şəxslər tərəfindən pozulan gömrük normaları ilə

bağlı 15 günə, rəsmilər və başqa şəxslər tərəfindən edilibsə işə 1 aya kimi baxılmalıdır (Xəlilli A. 2017).

Gömrük orqanlarının cinayət-hüquqi forması. Gömrük fəaliyyətini aparan idarələr vasitəsilə təhqiqat və istintaqın reallaşdırılması, elə həmin vaxt reallaşdırılan bir sıta cinayət fomalı prosessual vəziyyətlər AR-da əsas qanunverici aktlardan birisayılan Cinayət-Prosessual Məcəlləsi ilə tənzi olunur (GM, Maddə 17 2019).

Həmçinin, "Azərbaycan Respublikasının bu Məcəllənin təsdiqi barədə qərar verilməsi, bu məcəllənin tətbiqi o cümlədən onun ilə əlaqəli olan normativ hüquqi tənzim etmə fəaliyyətləri barəsində" 2000-ci il 14 iyun tarixi qanunu qəbul olunduqdan sonra bu qanunla təsdiq olunmuş Cinayət-Prosessual Məcəlləsinin tətbiq olunmas haqqında Prezident Heydər Əliyevin 2000-ci il avqust ayının 25-i ilə Cinayət-Prosessual Məcəlləsinin 215.5-ci maddəsinə müvafiq olaraq Cinayət Məcəlləsinin 207-209-cu hissələrində qeyd edilən eləcə də 206-cı hissəsində qeyd edilmiş cinayət hüquq pozulmalara aid olan fəaliyyətə uyğun olaraq bu fəaliyyətə başladıqda ibtidai istıntaqın həyata keçirilməsinin DGK tərəfindən reallaşdırılması qeyd edilmişdir.

Ölkəmizdə ibtidai istintaq gömrük idarələrinin qeyd edilən funksiyasına daxil edilən hüquq pozulmalarına bunlar daxildir:

- qaçaqmalçılıq;
- bədii, tarixi və arxeoloji sərvəti olan şeylərin ölkə məkanına geri qaytarılmaması;
- gömrük rüsumlarının ödənilməsindən boyun qaçırma, xaricdən valyuta qiymətli əşyaların geri qaytarılmaması və qeyri-qanuni valyuta əməliyyatları (Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C .2009)

Dünya təcrübəsində qaçaqmalçılıq ən çox kontrabanda formasında tanınır. Gömrük işi sferasında qaçaqmalçılıq daha ciddi cinayətlərdən biridir. Qaçaqmalçılıq - gömrük hüdudundan gömrük yoxlanışı fəaliyyətindən xaric və budan gizli şəkildə, rəsmi sayılan sənədlərdən həmçinin, bərabərləşdirmə vasitələrindən də düzgün istifadə olunmaması, həmçinin maları bəyan etməməklə eləcə də doğru bəyan etməməklə məhsulların keçirilməsi hesab edilir. Gömrük məkanından kənara

çıxarılmış Azərbaycan xalqının və digər xalqlarının bədii, arxeoloji sərvəti olan şeylərin qüvvədə olan normativlərə uyğun olaraq geri göndərilməsi məcbur olan halda və müəyyən edilmiş zamanda geri qaytarılmadıqda da qaçaqmalçılıq halı sayılır.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsi" 30 dekabr 1999-cu ilin tarixli qanunu ilə təsdiq edilmiş həmçinin, onun tətbiq edilməsinə isə 2000-ci ilin sentyabr ayının 1-dən başlanmışdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 206-cı hissəsinə əsasən "Qaçaqmalçılıq, sərhəddən eləc də gömrük nəzarətindən xaric və ya ondan gizli, yaxud sənədlərdən və gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə etməklə,bəyan etməməklə və ya doğru bəyan etməməklə məhsulların keçirilməsidir".

Qeyd olunan maddənin ilk hissəsinə əsasən "mallar və başqa şeylər külli miqdarda keçirildikdə 5 ilə kimi azadlıqdan məhrum etmək ilə cəzalandırılır" 206-cı maddənin 2-ci hissəsinə əsasən, "narkotik və psixotrop maddələrin, zəhərləyici, radioaktiv, partlayıcı , hərbi silahın və texnikanın, döyüş sursatının, nüvə, kimyəvi, bioloji və başqa kütləvi qırğın silahlarının yaradılmasında istifadə edilən və ölkə gömryündən keçirilməsi üçün uyğun normalar, müəyyən olunmuş strateji vacib xammalın mədəni, tarixi sərvət olan əşyaların Azərbaycan Respublikasının gömrük hüdudundan gömrük nəzarətindən xaric və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük bərabərləşdirilmsəi vasitələrindən aldatma yolu ilə istifadə etməklə, bəyan etməməklə və yaxud dürüst bəyan etməməklə aparılması - mülkü müsadirə edilməklə və ya edilməməklə 3 ildən 7 ilə qədər vaxta azadlıqdan məhrum etmək ilə cəzalandırılır" (Şəkərəliyev A.Ş, Nuriyev C.Q., Əliyev A.Ə., Şəkərəliyeva Z.A.2018 ).

**Cədvəl 3: Aşkar edilmiş cinayət xarakterli faktlar**

| Cinayət xarakterli faktlar | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| | 516 | 704 | 751 | 866 | 509 |
| O cümlədən: Qaçaqmalçılıq faktı | 323 | 436 | 518 | 562 | 160 |
| Narkotik v və psixotrop maddələrin qanunsuz dövriyyəsi | 129 | 202 | 252 | 393 | 111 |
| Gömrük ödənişlərinin ödənilməsindən yayınma | 6 | 4 | 12 | 11 | 20 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Aksiz ilə markalanmalı olan malları markaolmadan idxal etmə | 83 | 84 | 33 | 28 | 10 |
| Digər cinayət xarakterli faktlar | 116 | 200 | 184 | 190 | 331 |
| Təqsirləndirilən şəxslər | 577 | 765 | 802 | 992 | 517 |

**Mənbə:** (Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin rəsmi saytı məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda/ 2021)

**Cədvəl 4: Aşkar edilmiş inzibati xəta faktları**

| Aşkar edilmiş inzibati xəta faktları | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| | 8 500 | 8 115 | 8 921 | 12 577 | 18 404 |
| Kənar formada keçirmə halları | 5 | 1 | - | 1 | 0 |
| Gizli şəkildə keçirmək halları | 559 | 418 | 295 | 418 | 309 |
| Malı bəyan etməmək halları | 319 | 318 | 402 | 332 | 309 |
| Mal eləcə də nəqliyyatın onlara aid olan rəsmi sayılan sənədlərin çatdırılmaması | 6 078 | 5 968 | 6 619 | 7 255 | 14 464 |
| Geri aparmama (gətirməmə) | 325 | 583 | 513 | 1 546 | 575 |
| Gömrük ödənişlərindən yayınma | 63 | 22 | 56 | 80 | 369 |
| Aksiz markasız idxal | 6 | 1 | 2 | 2 | 0 |
| Digər xətalar | 1 170 | 812 | 1 078 | - | 2 474 |

**Mənbə:** (Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin rəsmi saytı məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda/ 2021)

Gömrük orqanlarının əməliyyat axtarış fəaliyyəti. GM-nin 19-cu maddəsinə əsasən, "Gömrük orqanları təhqiqatının və istintaqının həyata keçirilməsi səlahiyyətlərinə aid olunan cinayətlərin qabağının alınması, aşkar olunması və açılması, onları düzəldən, törədən və yaxud da törətmiş şəxslərin müəyyən olunması üçüm əməliyyat-axtarış işini reallaşdırırlar. Gömrük orqanlarının əməliyyat-axtarış işi Azərbaycan CPM, "Əməliyyat-axtarış fəaliyyəti barəsində" Azərbaycan Respublikasının Qanunu və əməliyyat-axtarış işini tənzim edən başqa hüquqi-normativ aktları ilə müəyyən olunmuş foramada reallaşdırılır"

"Əməliyyat-axtarış fəaliyyəti barəsində" qanununun ilk maddəsinə əsasən, bu fəaliyyət – ölkə ərazisində müvafiq hökümət orqanları vasitəsi ilə bəlli eləcə də bəlli edilməmiş olan metodlarla göstərilən bu qanunvericiliklə ona verilən bir sıra hüquqlar əsasında vətəndaşların təhlükəsizliyini, eləcə də hüquq və azadlıqlarını, bundan əlavə hüquqi şəxslərin qanuni sayılan maraqlarını, o cümlədən daxili təhlükəsizliyi qorumaq məqsədilə aparılır (Gömrük Məcəlləsi 19 maddə).

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLIKASINDA GÖMRÜK SISTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNIN ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. Azərbaycan Respublikası gömrük sistemində baş verən çatışmamazlıqların təhlili

Müasir şəraitdə Azərbaycanda yeni iqtisadi əlaqələrin tərəqqi etməsi, dünyada baş verən yeni iqtisadi münasibətlər sisteminə eləcə də onun beynəlxalq əmək bölgüsü sisteminə inteqrasiya etməsi, bundan əlavə beynəlxalq ticarət təşkilatlarına üzvlük prosesinə hazırlıq, xarici iqtisadi əlaqələrin daha da sərbəstləşdirilməsi əsasında ölkənin gömrük işinin tərəqqi etməsi eləcə də yeni sayılan məqsədli yanaşma əsasında həyata keçirilməsi daha səmərəlidir.

Respublikamızda iqtisadiyyatın, ticarət münasibətlərinin artırılması, səmərəliliyə nail olmaq üçün bir sıra işlər görülməlidir:

- dövlətin ticarət potensialının hərtərəfli təhlili, inkişaf faktorlarının istiqamətlərinin axtarılması;
- idxalın obyektiv tələbat həcminin axtarıb tapılması;
- alternativ sahələrin analizi əsasında inkişaf perspektivlərin araşdırılması;
- investisiyalarin və başqa resursların ölkəyə istiqamətləndirilməsi;
- inteqrasiya proseslərinin tənzimlənməsi və inkişafı

Demək olar ki, müasir zamanda Azərbaycanın ticarəti tənzim edən təşkilatlarda iştirakı imkanları artır. Hazırda ölkəmizdə müstəqil bazar iqtisadiyyatına keçid, mülkiyyətin çoxçeşidliyi, xarici ticarətin liberallaşdırılması, «açıq qapı» siyasətinin aparılması, bir sıra gömrük məhdudiyyətlərinin ləğv olunması və s. istiqamətində ölkə tərəfindən müəyyən tədbirlər reallaşdırılır. Ölkədə XİF prinipcə yeni qanunverici bazaya malik olmaq və dövlət tənzimlənməsi mexainzminə əsaslanmaqla, bazar iqtisadiyyatının müəyyən tələblərinə cavab verməli, ölkənin dünya iqtisadi sistemində inteqrasiyasını təmin etməlidir (Heydərov K.F., Əliyev A.Ə., Nuriyev C.Q., Mehdiyev S.M. 2006)

H.Əliyev bir zamanlar gömrük işində formalaşmış situativ vəziyyəti belə dəyərləndirmişdir ki, gömrük əməkdaşları öz vəzifələrindən sui-istifadə edirlər. Bütün bunlarla qarşı ciddi mübarizə aparılmalıdır. Gömrük orqanlarında qanuni, hüquqi fəaliyyətlər aparılmalıdır, heç bir qeyri-qanuniliyə yol verməK olmaz. Hər kəs gərəkli qayda da çalışıb xidmət göstərsə respublika üzrə mənfəətimiz daha artıq ola bilər.

Gömrük xidmətində müəyyən faktorlar vardır ki, onlar onun rolunu və əhəmiyyətini genişləndirir. Bu faktorlara aşağıdakılar aiddir:

- XİF tənzimlənməsi prosesində səlahiyyətlər və məsuliyyətlər kəskin formada mürəkkəbləşməsi;
- Gömrüyün rəsmiləşdirilməsində bir sıra problemlər;
- Fəaliyyətlərin texnologiyadan asılılığı;
- Gömrük orqanlarının huquq-mühafizə orqanı olması və onun hüquqi məqsədlər daşıması ,dövlətin iqtisadi təhlükəsizliyini təmin etməsi;
- Gömrük təşkilatlarının işçi heyətinin savadlı mütəxəssislərdən seçilib təşkil edilməsi və öz qabiliyyətlərinin daima inkişaf etdirmələri (Şəkərəliyev A. 2011).

Azərbaycan iqtisadiyyatının inkişaf etməsində gömrük-tarif tənzimlənməsi iqtisadiyyatın idarə edilməsində vacib məsələdir. Elə buna görə də gömrük tarifləri çox şaxəyə sahib olan elementlərdən ibarətdir. Gömrük-tarif tənzimlənməsinin başlıca elementi milli bazarı mühafizə etməsidir. Baş verə biləcək iqtisadi təhlükəni əvvəldən müəyyən edir.

Ölkədə gömrük sisteminin təkmilləşdirilməsi və inkişaf etdirilməsinə daxili iqtisadi təhlükəsizliyin təmin edilməsi tərəfindən böyük ehtiyac vardır. Ölkənin milli xüsusiyyətləri, MDB dövlətləri ilə ticarət münsaibətlərinin genişlənməsi, gömrük sisteminin əlverişliliyinə zəmanət verəcək üsullar və prinsip əsasında inkişaf etdirilməsini tələb edir.

Ümümdünya Ticarət Təşkilatına üzvlük dönəmində XİF-in daha da sərbəstləşdirilməsi, gömrük orqanlarının işinin daha da mütərəqqi və təkmil həyata keçirilməsini tələb edir. İEÖ-in praktikası ölkədə həyata keçirilən gömrük xidmətlərinin tərəqqisini həmçinin onun gücləndirilməsini proqram-məqsədli

münasibət göstərmək fonunda olmasının səmərəliyini nümayiş etdirir. Həmçinin, gömrük sisteminin inkişafı proqramının olmasına böyük ehtiyac var. Gömrük işinin faydalılığının yüksəldilməsi mexanizminin gərəkli dərəcədə işləməsini təmin etmək məqsədilə bütün tələb edilən taktiki eləcə də strateji sayılan üsulların həyata keçirilməsi ilə daha da səmərəli yekunlara çata bilər.

Birinci olaraq taktiki olan tədbirlərə bunlar daxildir: ölkədə aparılan gömrük prosedurlarının müəyyən qədər asanlaşdırılması (məsələn, yüklərin müayinə olunması vaxtının mümkün qədər azaldılması eləcə də seçmə üsulu ilə həyata keçirilməsi, rəsmiləşdirmə proredurlarında olan gərəksiz sayılan müəyyən sənədlərin ləğvi və sonda rəsmiləşdirmə vaxtının mümkün qədər azaldılması), ölkə ərazisində gömrük məlumat-informasiyalarının operativ işlənməsinin yeni sayılan avtomatlaşdırılmış sisteminin tətbiqi, ölkənin gömrük işi sahəsinə daxil edilən infrastruktura sisteminin inkişafı, bundan əlavə orqanlar tərəfindən aparılan rəsmiləşdirilmə proseduralarının müasir dünya standartları tələblərinə cavab verməsi aid edilir.

Strateji tədbirlərə isə ilk olaraq ÜGT-nin müəyyən tövsiyyələri aid olunmalıdır. Ümumdünya Gömrük Təşkilatının tövsiyələri isə vəsait imkanlarından məqsədəuyğun və ya rasional şəkildə istifadə etmək, gömrükxanaların baş idarələrinin daha da möhkəmləndirilməsi, gömrük orqanlarının idarəetmə strukturunun inkişaf etdirilməsi, uyğun olan sistemin eləcə də strukturunun yaradılması kimi problemlərin həllini nəzərdə tutur (Rzayev E. 2019)

Azərbaycanda xarici ticarət əməliyyatlarının asanlaşdırılması, ixracyönümlü maliyyə imkanlarının yüksəldilməsi və yerli investisiyaların təşviqinə yönlənmiş daimi islahatlar həyata keçirilməkdədir. Qeyd edilən sferada atılan çox zəruri addımlardan biri də “Azərbaycan iqtisadiyyatının strateji yol xəritələri” yaradılması sayıla bilər. Qeyd edilən bu layihə, iqtisadiyyatın rəqabətədavamlılığını eləcə də ölkənin və istehlakçıların sosial-iqtisadi rifahını artıracaq, yekunda sərmayelərin cəlb edilməsi, sərbəst rəqabət həyata keçirmək üçün mühiti və sonda isə xarici bazarlara rahat çıxışa yardım edəcək layihələr toplusundan ibarətdir. Ölkədə formalaşdırılan milli iqtisadi inkişaf üzrə Strateji Yol Xəritəsi üç dönəmdən

ibarətdir: Birincisi 2020-ci ilə kimi (qısamüddətli), İkincisi 2025-ci ilə qədər (ortamüddətli) növbəti isə 2025-ci il və gələcək dönəm üçün nəzərdə tutulmuş layihələr toplusu (https://static.president.az/pdf/38542.pdf 2016).

2019-cu il yanvarın 15-də ÜGT Bakıda Potensialın Artırılması üzrə Avropa Regional Ofisində "Ümumdünya Ticarət Təşkilatının "Ticarətin Asanlaşdırılması Sazişi"nin gömrüklə əlaqəli müddəalarının tətbiqinə dair" konfrans keçirilirmişdir. Ticarətin sadələşdirilməsi sərhədkeçmə proseslərinin tezləşdirilməsindən, eləcə də Səlahiyyətli İqtisadi Operator (SİO) institutlarının optimal fəaliyyətindən çox asılıdır.

Hazırkı dövrdə büdcə gəlirlərinin idarə olunmasının inkişafı üçün gömrük sistemində vergi səviyyələrinin optimallaşdırılmağına böyük tələb var. Məlum məsələdir ki, vergi dərəcələrinin azaldılması uzunmüddətli zamanda iqtisadi tərəqqini dəstəkləməklə vergi bazasının böyüməsinə və ölkə büdcəsinin gəlirlərində vergi daxilolmalarının çoxalmasına səbəb ola bilər. Ancaq bu zaman önəmli problem iqtisadiyyatın hansı fazada və yaxud hansı dönəmdə olmasının dəqiq müəyyən olunması və buna müvafiq səmərəli vergi dərəcələrinin hansı effektlər göstərəcəyinin təhlili zəruridir. Dəqiq dəyərləndirmə aparılmazsa isə vergi dərəcələrinin aşağı salınması sahəsində reallaşdırılan islahatlar habelə uzunmüddətli zamanda istənilən təsiri verməyə bilər və büdcə daxilolmalarını ciddi formada azalda bilər. Bu səbəbdən ölkənin vergi yükü əmərəli dərəcədə saxlanılmalı və gömrük sisteminin sərbəstləşdirilməsi sferasında daha çox siyasət yerdilməli, vergi dərəcələrinin gərəkli səviyyədə azaldılması ilə əlaqəli olaraq hüquqi-normativlərə bəzi dəyişikliklərin edilməsinə üstünlük verməlidir. Ölkəmizdə vergi siyasətinin bütün xarakterik xassələri üzrə səmərələşdirilməsi daha təsirli olan ekonomik araşdırmalar, həmçinin empirik tədqiqatlar reallaşdırmaqla müəyyən oluna bilər (Məmmədov F., Musayev A., Sadıqov M., Kəlbiyev Y., Rzayev Z. 2010 ).

Dövlət büdcə gəlirlərinin tənzimlənməsinin möhkəmləndirilməsində zəruri sayılan metodlara vergi qaydalarının daha da təkmilləşdirilməsini aid etmək olar. Burada, əvvəla vergi o cümlədən gömrük idarələrinin təşkilati sayılan problemlərinin səmərəli həll edilməsinə, vergitutma zamanı düzgünlük və ədalətlilik

prinsiplərinə ciddi şəkildə əməl olunmasına, rüsum və vergi ödəyicilərinin anında və dəqiq informasiyalandırılmasına olduqca böyük ehtiyac var. Gömrük və vergi idarələrində xidmətə qəbulun, başqa dövlət orqanlarında olduğu kimi, müsabiqə əsasında keçirilməsi və daha da optimallaşdırılması gömrük və vergi strukturunun fəaliyyətinin təkmilləşdirilməsinə önəmli təsir göstərə bilər. Gömrük, vergi nizam intizamının inkişaf etməsi məsələsi gömrük eləcə də vergi idarəsinin rəsmi şəxslərindən, habelə vergini ödəyən şəxslərdən bilavasitə asılıdır. Ümumiyyətlə, vergi intizamının yüksəldilməsi ancaq vergi ödəyicilərindən asılı olan bir problem deyil, eləcə də, vergi intizamının artırılması bir sıra verginin çeşidlərini bundan əlavə çeşidlər üzrə reallaşan müasir sayılan islahatları zəruri edir. (Dövlət Büdcəsi haqqında AR Qanunu. Bakı 2019 ).

AR region ölkələri arasında vergi dərəcələrinin rəqabətqabiliyyətliliyi cəhətdən aşağı mövqeyə sahibdir. Ümumi olaraq ölkə büdcəsinə vergi oqranlarından daxilolmalarının həcmi ölkə ərazisində 39,8% olduğu vəziyyətdə, Gürcüstan Respublikasında qeyd olunan həcm 16,4 %, Qazaxıstanda isə 29,2 % təşkil edir. Burada Dünya Bankının statistik məlumatlarına görə, 2014-cü il ərzində ölkəmizdə idxala çəkilən xərclər 3450 dollar olmuşdur (bir konteynerə əsasən hesablanmışdır). Buna baxmayaraq bu göstərici 1235 dollar Türkiyə Respublikasında, Gürcüstanda isə 1595 dollar, 2595 dollar isə Rusiya Federasiyasında qeydə alınmışdır. Həmçinin 2015-ci il ərzində Dünya İqtisadi Forumunun yeni hesabatına əsasən, Azərbaycan Respublikası "Gömrük prosedurlarının biznes üzərində yükü" göstəricisinə əsasən ölkə 144 dövlət içində o 122-ci yerdə yerləşmişdir (Xəlilli A. 2017)

## 3.2. Azərbaycan Respublikası gömrük sisteminin tənzimlənməsinin hüquqi - normativ bazasının daha da təkmilləşdirilməsi məsələləri

Dünyada hər bir dövlətin iqtisadi təhlükəsizliyinin müdafiə olunması,əhalinin sağlamlığının qorunması, daxili bazarın xarici rəqabətdən müdafiə edilməsi və s. gömrük orqanlarının  fəaliyyətinə əsaslanır. Ölkədə həyata keçirilən bu kimi tədbirlərin ən başlıca təminatçılarından biri sayılan gömrük orqanlarıdır ki,onlar respublikamıza gətirilən və çıxarılan bütün malların keçirilməsi gömrük vasitəsilə həyata keçirilir.

Respublikamızda 2016-cı ildə reallaşdırılan ciddi islahatlar gömrük sistemində də bir sıra müsbət dəyişikliklərə səbəb olmuşdur. Gömrük sistemində aparılan yekun islahatlar sonunda ölkə sərhədinin buraxılış qabiliyyətini yüksəltmək eləcə də bu şəxslərin sərbəstliyini reallaşdırmaq məqsədi ilə əmtəə o, cümlədən nəqliyyat vasitələrinin müayinə edilməsində "bir pəncərə" prinsipi inkişaf etdirilmişdir. Ölkədə sahibkarlığın tərəqqisində və biznes mühitinin yaradılmasında, eləcə də, ticarət və digər əlaqələrində idxal-ixracın rəsmi şəkilə salınması işinin asalaşdırılması,  gömrük sisteminin rolunun daha da yüksəldilməsi məqsədilə, bir neçə səmərəli işlər görülmüşdür..

DGK-nin strukturunda müəyyən dəyişikliklər qeydə alınmışdır. Burada əsas dəyişikliklərdən biri  Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsi formalaşdırılmışdır. Gömrük idarələri sistemində ümumi olan biznes prosesin, xüsusi gömrük idarələrinin eləcə də işçilərinin müəyyən işlərinin dəyərləndirilməsi baş idarənin işinin mühüm məqsədlərini əhatə edir. Qeyd olunan dəyərləndirilmənin yekun hissəsi kimi ticarət əlaqələrinin sadələşdirilməsi məqsədi ilə bir sıra prosedurlarda biznes gedişlərinin tərəqqisi üçün dünyada müasir sayılan innovasiyon proyektlərin tətbiq olunması əsas götürülür. Bu İdarə vasitəsilə ölkəmizin gömrük sisteminin mühüm hissəsi olan vahid avtomatlaşdırılmış idarəetmə sisteminin (VAİS) daha da inkişaf etdirilməsi, informasiyaların müayinəsi və emal olunması, biznes prosesin möhkəmləndirilməsi, innovasiya proyektlərinin tətbiq edilməsi, elektron gömrük xidmətlərinin yaradılması, gömrük statistikasının daha da təkmilləşdirilməsi sferalarında müəyyən işlər aparılmışdır. (https://customs.gov.az/az/xeberler/2261_/ 2017)

ÜGT-nın "Malların buraxılış vaxtının ölçülməsi üzrə Təlimat"ında qeyd edilmiş bir sıra üsullar toplusu üzrə hazır edilmiş dövlətin SBM-də "Sərhədkeçmə vaxtının ölçülməsi" proyekti yük və minik avtomobilləri yolları vasitəsi ilə nəql etdirilən məhsullara optimal nəzarət üçün ümümi SBM-lərdə tətbiq olunmuş, eləcə də vahid avtomatlaşdırılmış idarəetmə sisteminin (VAİS) qeyd olunan sistemə adaptasiyası prosesi təchiz olunmuşdur. Qeyd olunan planın icrası əmtəə eləcə də nəqliyyat növlərinin sərhəddən ötməsinə, buraxılış o cümlədən sərhəd keçəcəyindən buraxılişına kimi olan zamanları müəyyənləşdirməyə şərait yaradır eləcə də yığılan bir sıra informasiyaların analizi üzrə məhsulların sərhəddən aparılmasının daha optimal idarə edilməsi təmin olunur.

Gömrük rəsmiləşdirilməsinin daha da aydın aparılması, eləcə də, bir sıra bürokratizmə xas olan maneələrin eləcə də zaman itkisinin minimumlaşdırılması məqsədilə artıq ölkəyə gətirilən mal və nəqliyyat növləri haqqında qısa idxal bəyannaməsi verməklə dünya təcrübəsində optimal praktika formasında təsdiq edilmiş başlanğıc bəyanetmə elektron formasından faydalana bilərlər. Burada ölkəyə malların gətirilməsi və aparılması əməliyyatlarını reallaşdıranlar məhsullar hüdudu keçənə qədər gömrük idarələrinə əvvəlcədən, uyğun olaraq qısa bəyannamə (idxal və ya ixrac) verməklə, gömrük idarələrini həyata keçirdikləri xarici iqtisadi əlaqələr haqqında məlumat verirlər.

Gömrük orqanları tərəfindən rəsmiləşdirilmə əlaqədar olaraq həmin yenilik ölkənin GM eləcə də AR Nazirlər Kabinetinin "Gömrükdən ötürülən mal və nəqliyyat vasitələrinin bəyanı Qaydaları"nın icrası barəsində 263 saylı, 2014-cü il iyul  ayının 22-i qərarı ilə nizamlanır o cümlədən ÜGT vasitəsi ilə hazır edilmiş "Gömrük XXI əsrdə" sənədi eləcə də ÜTT daxilində son dövrlər imzalanan Ticarətin Sadələşdirilməsi Sazişinin bir sıra iddialarına uyğun olmaqla, dünya təcrübəsində gömrük orqanları tərəfindən rəsmiləşdirilmənin sadələşdirilməsi, baş verə biləcək risk faktorlarının analizi bundan başqa gömrük nəzarətinin daha cəld eləcə də təsiredici həyata keçirilməsinə xidmət göstərən praktika kimi götürülür (https://customs.gov.az/az/faydali/xeberler/1352_/ 2016).

Azərbaycan Prezidentinin 2018-ci il dekabr ayının 21-i 427 nömrəli Fərmanı ilə "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən hər zaman istifadə hüququnu əldə etməsi, bu hüququn dayandırılması, ləğv olunması və bərpa edilməsi Qaydası" təsdiqinə görə reallaşdırılan sistemə 2019-cu ildən qəbul olan çağırışlar üzrə 500-ə yaxın ticarət iştirakçılarına ölkəyə mal gətirilməsində, həmçinin mal çıxarılmasında xidmətdən faydalanmağa görə müəyyən iznlər verilmişdir.

Bu buraxılış sisteminin geniş imkanlarından faydalanan sahibkarlar əmtəə və nəqliyyat vasitələrini gömrük məkanına gətirənə kimi birbaşa öz ofislərindən qısa idxal bəyannamələrini elektron formada verməklə gətirdikləri əmtəə və nəqliyyat vasitələrini bilavaistə anbarlarına apara bilərlər. Yaşıl dəhliz sistemi üzrə ümumi ticarət dövriyyəsi artıq 6,5 mlrd. dolları keçmişdir.

“Yaşıl dəhliz” və “bir pəncərə” kimi formalaşdırılmış mütərəqqi sistemlərin tətbiq olunması ticarətin sadələşdirilməsinə, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılmasına müsbət effektini göstərib. Görülmüş tədbirlər zamanı Dövlət Gömrük Komitəsində yekun illər ərzində müasir üsullarla reallaşan idxal-ixrac münasibətləri üzrə şəffaflığın təmin olunması ilə dünya iqtisadi əlaqələr sferasında illik ticarət dövriyyəsi yüksək miqdarda çoxalmışdır, buna görə də "güzgülü statistika" uçotun həyata keçirilməsini asanlaşdırır

Sərhəd buraxılış ərazilərində sərnişinlərin eləcə də nəqliyyat növlərinin cəld buraxlışın həyata keçirilməsi üçün “Elektron növbə”, “Sürətli keçid”, “Cip keçid” və digər elektron formalı sistemlər icra olunur. Bundan başqa “e-Növbə” sistemi nəqliyyatın ancaq postun girişindən növbə gözləmədən ötürülməsi məqsədi ilə yaradılmışdır. Bununla belə gömrük orqanı postunun tərkibində sərhəd eləcə də yoxlanış rejimləri üzrə təşkil edilmiş növbəyə daxil deyil. “Sürətli Keçid” sistemi nəqliyyatın postun başlanğıcından, müayinə eləcə də müəyyən sənəd qeydiyyatı mərhələlərindən növbə gözləmədən aparılması məqsədi ilə istifadə olunur (https://customs.gov.az/az/faydali/xeberler/3975_// 2019).

Müasir sərhədkeçmə proseslərində intensivliyin təmin edilmiş, zaman və vəsait itkisi aradan qaldırılmışdır: Hazırda Astara ərazisində yerləşən postda mobil gömrük

baxışının tətbiqi, Yaşıl dəhliz buraxılış sistemi vasitəsi ilə əmtəə eləcə də nəqliyyatın qeydiyyat proseduru yaradılır. Gömrük nəzarətinin aparılması vaxtı Astara gömrük postu şəxslərin daxilində gizlədilmiş qeyri-qanuni olan obyektlərin ifşası məqsədi ilə işlədilən "B-Scan" yoxlama cihazı, sistemi böyük ölçülü olan nəqliyyatın müaəyinəsi məqsədi ilə işlədilən nəzarət-yoxlanış qurğusu, böyük qabaritli olan palletlərin, yüklərin eləcə də əl ilə aparılan yüklərinin həmçinin poçtların müayinəsi məqsədi ilə işlədilən rentgen qurğusu ilə təchiz olunmuşdur.

Bundan başqa gömrük nəzarətinin aparılmasının önəmli hissələrindən biri Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində (VAİS) də möhkəmləndirmə işləri həyata keçirilir. Belə ki, rəsmi sənədlərin eləcə də keçirilən yüklərin rəsmi hala salınmasını reallaşdıran əməkdaşlar üçün avtomatik hala gətirilən bölgü və uçot sistemi hazır edilmiş, Bakı, Sumqayıt şəhərləri və Hava Nəqliyyatında Baş Gömrük İdarələrində test formasında istifadə olunmuşdur. VAİS-nin son dövrlər daha da inkişaf etməsinin əsasını Planşet üçün Mobil Gömrük Proqram Təminatı yaradılması təşkil edir hazırda test prosedurundadır. Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində həyata keçirilən möhkəmləndirmə fəaliyyətləri daxilində risk profilinin başlanmasından sonra sərhəd buraxılış məntəqələrində (SBM) və rəsmləşmədən sonra fiziki müayinələrin miqdarı azalmışdır. Son illərdə də SBM-də aparılan ümumi şəkildə nəqliyyat növlərinin həcmi artnışdır. Bunun əsas səbəblərindn biri "Bir inspektor-Bir nəqliyyat vasitəsi" planının tətbiq olunması olmuşdur. 2019-cu ildə sərhəd buraxılış məntəqələrindən aparılan ümumi şəkildə nəqliyyatların miqdarı 1.905.002 qədər olmuşdursa, ötən il 2018-ci il ərzində isə sərhəd buraxılış məntəqələrindən ötürülən nəqliyyat növlərinin miqdarı 1.265.563 ədəd təşkil etmişdir (https://customs.gov.az/az/faydali/xeberler/3411_/ 2019).

Gömrük orqanları tərəfindən tranzit rejiminin inkişafı istiqamətində yeni məqsədlər müəyyən edilib. Burada məqsədlər yeni sayılan alətlərin eləcə də rəqəmsal formalı prosedurların tətbiqi ilə tranzit daşımalarının çoxaldılması, Avropa Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə qoşulmaq, o cümlədən tamamilə elektronlaşdırlan tranzit rejimlərinin tətbiq olunması, hökümətlərarası ticarət münasibətlərinin dərəcəsinə əsaslanmaqla, ölkələrlə ticarət münasibətlərinə

əsaslanmaqla tranzit daşımalarında nəzarət eləcə də orqanlar tərəfindən rəsmiləşdirilmənin yeni üsullarla qarşılıqlı formalarda təkmilləşdirilməsi, tranzit ilə bağlı normativ-hüquqi hüdudun yüksəldilməsidir.

2019-cu il iyunun 13-də DGK Maersk və IBM şirkəti tərəfindən birlikdə işlənib hazırlanmış, blokçeyn texnologiyasına əsaslanmış təchizat zənciri platforması olan TradeLens-ə qoşulmüşdur. TradeLens-ə qoşulmaqla AR-nın idxal və ixrac əməliyyatlarının faydalılığını yüksəldilməsi və təhlükəsizliyinin daha da yaxşı səviyyədə təmin edəcəkdir. Bundan istifadə etməklə Azərbaycan Respublikası DGK TradeLens ekosistemi üzrə hərəkət edən daşımalardakı konteynerlərin tərkibi və prosesdə iştirakçı olan tərəflər barədə tez və ətraflı informasiya əldə edəcək. Belə olduqda isə dövlət daxilində və xaricində aparılan daşımalar üzrə risklərin daha optimal qaydada dəyərləndirilməsinə, ticarətlə məşğul olanlar üçün böyük xərc tələb edən öhdəliklərin azaldılmasına imkan verir. (Vəliyeva G.M 2020)

2019-cu il aprelin 20-də AR İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Doing Business hesabatının "Sərhəddə Ticarət" göstəricisi üzrə ölkəmizin müasir gömrük sistemində aparıan tədbir və fəaliyyətlər, ölkədə həyata keçirilən innovativ tədbirlər ilə ələqəli olan mətbuat konfransı keçirilmişdir. Ötən ildə 185-dən çox dövlət ilə müasir ticarət münasibətləri təşkil edilmiş bununla bərabər ölkədə xarici ticarət iştirakçılarının miqdarı isə 25 123 nəfər təşkil etmişdir, beləliklə 2017-ci ilə nisbətdə 156 % artım olması deməkdir. Onu da qeyd edək ki, burada 7392-i hüquqi, 17731 fiziki şəxslər sayılır. Bundan əlavə 2017-ci il ilə nisbətən qeyd edilən bu göstərici hüquqi şəxslər üçün 122 %, o cümlədən fiziki şəxslər üçün 176 faiz dərəcəsində artmışdır. Ölkəyə malların gətirilməsi və aparılması əməliyyatları vaxtı aparılan yüklərin həcmində də kəskin şəkildə artım faktorunun müşahidə olunması “Yaşıl dəhliz” sisteminin icrasından sonra baş vermişdir. Beləliklə 2018-ci il ərzində fevral ayının 1-dən aprel ayının 15-i tarixləri arasıında ölkə ərazisində qeyri-neft sektoru üzrə daşınmış yüklərin kəmiyyəti ixrac əməliyyatlarında 67 min, idxal əməliyyatlarında isə 177 min ton olurdusa, hazırkı dönəmdə bu göstərici ixrac əməliyyatında 130 min, idxal əməliyyatında isə 207 min tona qədər artmışdır.

Fevralın 20-də DGKdə gömrük idarələrində reallaşdırılan son yeniliklər və dəyişikliklərlə əlaqəli aidiyyəti dövlət qurumlarının əməkdaşları ilə görüş keçirilmişdir. Tədbir ölkə Prezidentinin “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən həmişəlik olaraq faydalanma hüququnu əldə etməsi,bu hüququn dayandırılması, ləğv edilməsi və bərpası Qaydası"nın təsdiq olunması barədə 21 dekabr 2018-ci il tarixli və "Rəqəmsal Ticarət Qovşağı kimi ölkənin mövqeyinin təkmilləşdirilməsi və xarici ticarət əməliyyatlarının artırılması ilə əlaqəli əlavə tədbirlər barəsində" 22 fevral 2017-ci il fərmanlarının icrasından irəli gələn problemlərlə əlaqəli biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın hazırladığı "İcra və Kommunikasiya Planı"na müvafiq təşkil olunub.

"Azərbaycan Respublikasında biznes mühitinin səmərəliyinin yüksəldilməsi və beynəlxalq reytinqlərdə respublikamızın mövqeyinin daha da gücləndirilməsi ilə əlaqəli əlavə tədbirlər barəsində" sərəncamına əsasən təşkil edilən komissiya daxilində Xarici Ticarət üzrə İşçi Qrupu yaradılmış eləcə də, aidiyyəti hökümət idarələrinin təmsil olunduğu işçi qrup tərəfindən yanvar ayında tədbirlər planı hazırlanmışdır. Layihədə nəzərdə tutulmuş tədbirlərin əsas hədəfi xarici ticarətin daha rahat, və əngəlsiz formada aparılmasını təmin etmək, biznes mühitinin gücləndirilməsinə, respublikanın ixrac və tranzit imkanının artırılmasına əlverişli şərait yaratmaqdır.

"Gömrük rəsmiləşdirilməsinin təkmilləşdirilməsi üzrə Konsepsiya” nın tətbiq edilməsi vətəndaş-məmur təmasının tam aradan götürülməsinə, elektron xidmətlərin sayının çoxaldılmasına, gömrük əməliyyatlarının cəld və təsirli formada həyata keçirilməsinə, xidmət səviyyəsinin artırılmasına əlverişli imkan yaratmışdır. Yeni konsepsiyaya görə xarici ticarət iştirakçısının "Vahid Uçot və Balans sistemi"nin yaradılması, gömrük tariflərinin tənzimlənməsi və gömrük qiymətləndirilməsində subyektiv faktorlara yol verilməməsi üçün XİF-in əmtəə nomenklaturasında əks edilən təfsilatlı kodlaşdırılma sisteminin formalaşdırılaraq tətbiq olunması planlaşdırılır (https://customs.gov.az/az/faydali/xeberler/3285_/ 2019)

2020-ci il sentyabrın 3-də isə Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı daxilində "Elektron və kağızsız ticarət" adlı mövzusunda

vebinar keçirilmişdir.Burada başlıca hədəf Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı dövlətlərində elektron ticarətə dair vəziyyət, Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) İnstitutu və Asiya İnkişaf Bankı tərəfindən elektron ticarət üzrə normaların təhlilinə dair yekunların təqdimatı, informasiya texnologiyaları infrastrukturu ilə bağlı gömrük məsələləri və rəqəmsal platformalara dair tərəfdaş dövlətlərin qlobal təşəbbüslərinin göstərilməsi, habelə elektron ticarətlə əlaqəli daxili və sərhədboyu problemləri müzakirə etmək olmuşdur.

Ekspertlər vasitəsilə Dövlət Gömrük Komitəsinin göstərdiyi bütün elektron sistemlərin bir mənbədə toplandığı “e.customs.gov.az” portalı təşkil edilmişdir. Burada Komitə vasitəsi ilə 2 müxtəlif sayt üzərindən, cəmi 18 xidmət göstərilir. (“e-gov.az” və “c2b.customs.gov.az”)  Burada göstərilən xidmətlərin 13-ü elektron hökumət saytı sayılan “e-gov.az”, qalan 5-i Dövlət Gömrük Komitəsinin c2b.customs.gov.az saytı tərəfindən göstərilir. "e.customs.gov.az"saytı işə başladıqdan sonra şəxslərin rahatlığını tam təmin etmək və bütün xidmətləri bir məkandan almaq mümkündür.

DGK tərəfindən tətbiq olunacaq yeni plana əsasən sərhədkeçmə əməliyyatları vaxtı risk dəyərləndirməsi tam avtomatlaşdırılacaq. Qeyd olunan yeni plana əsasən SBM-nin real imkanlarından məqsədli yaralanmaya, gömrük orqanının sərəncamında yer alan vəsaitlərin daha da riskli sayıla biləcək sektorlara istiqamətləndirilməsinə imkan verəcək. Həmçinin, nəzərdə tutulan yeni dəyişiklik DGK-nin səlahiyyətləri daxilində sərhəd keçmək üçün xərclənən zamanın mümkün qədər minimumlaşdımasını nəzərdə tutur. “Doing Business” siyahısının rəqəmləri üçün respublikamızın mövqeyinin yaxşılaşdırılmasına effektiv təsir edən vacib faktordur (https://customs.gov.az/az/faydali/xeberler/4363_/ 2020)

"Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" (Smart Customs) planının tətbiq olunmasına 2021-ci il yanvarın ayının 1-dən başlanılmışdır. Respublikadakı real durumla əlaqədar olaraq  tətbiqinə müvəqqəti olaraq fasilə verilmiş "Smart Customs" daha da inkişaf etmiş formada tətbiq olunmağa başlayıb. Beynəlxalq poçt göndərişləri və yaxud daşıyıcı firma tərəfindən xaricdən məhsul gətirən fiziki şəxslər

artıq gömrük idarəsinə gəlmir, gömrük əməkdaşı ilə birbaşa təmasda olmadan bütün gömrük əməliyyatlarını reallaşdıra bilir. Beynəlxalq poçt göndərişləri və daşıyıcı təşkilatlar vasitəsilə sifariş olunan bağlamalar "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" tətbiqi vasitəsilə gömrük orqanına bəyan edilməlidir.

Dövlət Gömrük Komitəsi sahibkarlıq biznesinin gücləndirilməsi eləcə də gömrük rejimlərinin, sərhəddən keçmək üçün aparılan tədbirlərin daha asanlaşdırılması yeni  formatlı layihələr reallaşdırırr. "Ticarət Statistikası Portalı" ölkənin gömrük idarələrinin formalaşdırdığı müasir növ proyektdir. "Ticarət Statistikası Portalı"nı təşkil etməkdə başlıca hədəf bir sıra maraqlı sayılmaqda olan tərəflər üçün ölkənin ticarət dövriyyəsini vizual formada olaraq maraqlı formada verməkdir. Bu portal XİF iştirakçılarına respublikadakı bazarı analiz etmək, o cümlədən vahid rəqəmsal ərazidə statistik informasiyaları qazanmaq şansı verəcək. Bu portalin təqdim etdiyi başqa bir yenilik isə Azərbaycan Respublikasının XİF-in əmtəə nomenklaturası, idxal və ixrac gömrük rüsumlarının dərəcələri barədə informasiyaları daha yeni formatda maraqlı tərəflərə çatdırmaqdır (S.Ağayev, S.Hüseynov 2021).

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Hər bir ölkənin gömrük xidməti xarici iqtisadi fəaliyyətin tənzimlənməsi məqsədilə ölkənin mühüm alətlərindən  biri sayılır və ancaq yerli sahibkarların beynəlxalq əməkdaşlığa cəlbini stimullaşdırmaq, daxili və xarici sənayeçilər arasında dürüst formada rəqabətin təşviq olunması üçün reallaşdırılan tədbirlər nəticəsində iqtisadiyyatda bir sıra uğurlu nəticələr qazanmaq mümkündür.

Dissertasiya işi AR gömrük sisteminin təkmilləşdirilməsi ilə əlaqəli tədqiqat problemlərinə həsr edilmişdir. Aparılan araşdırmanın yekunlarına əsasən, xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi ancaq gömrük normalarının tamlıqla eləcə də düzgün reallaşdırılması üçün imkan olduğu zaman təqdirdə mümkün ola bilər

Respublikanın digər dövlətlərlə eləcə də beynəlxalq səviyyəli təşkilatlarla səmərəli münasibətlərin qurulması gömrük fəaliyyətinin dəqiq və düzgün həyata keçirilməsindən birbaşa asılıdır. Həmçinin, ölkəninn reallaşdırdığı gömrük siyasəti gömrük fəaliyyətinin təşkili o cümlədən idarəsində yeni innovativ sayılan üsulların tətbiqi dərəcəsindən də asılıdır. Ölkədə gömrük fəaliyyətinin səmərəli həyata keçirilməsi və müasirləşdirilməsi elə bu cəhətdən vaciblik kəsb edir.

Azərbaycan Respublikasında əvvəlki dönəmlərdə gömrük sistemində əhəmiyyətli yeniliklər həyata keçirilmiş, gömrük orqanlarında şəffaflıq daha da yüksəldilmiş, əmtəələrin bəyan edilməsi eləcə də rəsmiləşdirilmə işinin elektron qaydada icrası təmin edilmişdir. Yerli iqtisadiyyatımızın daha da stimullaşdırəlması, eləcə də ölkəmizin iqtisadi siyasətindən doğmuş olan başlıca vəzifələrin reallaşdırılması, ölkənin gömrük sərhədindən malların aparılaması və gətirilməsinin qanunverici akrtlara müvafiq reallaşdırılmasının təmin edilməsi, dövlətin ticarət-iqtisadi əlaqələrdə gömrük tənzimlənməsi üsullarından istifadə etmək, gömrük orqanları tərəfindən toplanmış ödənişlərin ölkə büdcəsinə ötürülməsinin təmin edilməsi, bundan əlavə valyuta nəzarətinin tətbiq edilməsi, iqtisadi təhlükəsizliyin mütərəqqi qaydada təmini və milli bazarın qorunması, gömrük nəzarətinin daha da gücləndirilməsi, gömrük sferasında cinayətlərə eləcə də başqa prosessual hərəkətlərə qarşı mübarizə, narkotik həmçinin psixotrop maddələrin qeyri-qanuni keçirilməsinin qarşısı alınması, kadr siyasətinin səmərəliyinin artırılması sahəsində zəruri fəaliyyətlər aparılmışdır.

Burada qoyulan məsələlərnin həll olunması yönündə müəyyən təklif və tövsiyələr təqdim edilmişdir.

- Azərbaycan Respublikasının gömrük işinin qarşısında dayanan başlıca məsələlərdən biri sayılan daxili iqtisadiyyatın kənar rəqabətin mənfi təsirlərindən qorunması vaxtı meydana gəlməkdə olan maneələri həll etməkdir. Elə buna görə də

hüquqi-normativ bazanın, qanunvericiliyin möhkəmləndirilməsi işləri davam etdirilməlidir.

- Ölkənin gömrük işinin aparılmasında başlıca hədəf xammal eləcə də investisiya istiqamətli sayılan əmtəələrə təsiredici imkanın yaradılması, həmçinin daxili istehsalçıların hüquq və mənafelərinin müdafiə edilməsi isiqamətində olmalıdır.

- Yerli istehsal sayılan malların ixrac edilməsi işinin yüksəldilməsini dəstəkləmək məqsədilə ixrac üzrə xüsusi ekspertlərin hazırlanması eləcə də gömrük fəaliyətinin təşkil edilməsi həmçinin idarəsinin dünya standartlarına müvafiqliyinin təmini, gömrük tarifinin dərəcələrini dövlətin inkişaf konsepsiyasının hədəflərinə uygunlaşdırmaq önəmli səviyyədə zəruridir.

- Gömrük orqanları tərəfindən gömrük daxilolmalarının dövlət büdcəsində çoxaldılması və ya optimalllaşdırılması məqsədilə hüquqi-normativ qanunverici baza formalaşdırılmalıdır.

- Ölkədə gömrük siyasətinin həyata keçirilməsi üçün optimal, elmi əsaslandırlmış daha çox çağdaş dəyərlərə söykənmiş gömrük sistemi formalaşdırmaq.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. “Azərbaycan Respublikasının Gömrük Məcəlləsi” Bakı 2019.
2. “Azərbaycan Respublikasının Vergi Məcəlləsi” Bakı 2020
3. Aslanov H. “Beynəlxalq iqtisadi əlaqələrə dövlət müdaxiləsində gömrük xidmətinin rolu” Audit. (2018). № 4, Cild 22, səh. 16-26.
4. Dövlət Büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı 2019

5. Gömrük tarifi haqqında Azərbaycan Respublikasının qanunu, Bakı - 2013
6. Heydərov K..F. (2004). "Gömrük işinin əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Qanun. 568 səh.
7. Heydərov K..F. Əliyev A.Ə., Nuriyev C.Q., Mehdiyev S.M. (2006) "Gömrük rəsmiləşdirilməsi" Ali məktəblər üçün dərslik Bakı "Qanun" 86 səh.
8. Xəlilli A. (2017). "Azərbaycan Respublikasinin gömrük siyasəti və onun təkmilləşdirilməsi". ADİU, Bakı. 81 səh.
9. İbrahimov A. (2019) "Azərbaycanın gömrük siyasətinin büdcə daxilolmalarına təsiri". ADİU, Bakı. 69 s.
10. İbrahimov T. "Gömrük orqanlari sistemi: islahatlar və modernləşdirmə". Bakı. Azərbaycan Universiteti. İpək yolu. (2017). No 2. səh.54-63
11. Qanbayev E.E. "Gömrük nəzarəti və onun nəzəri-metodoloji əsasları" Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri (2020) - № 54. səh. 51-58.
12. Quliyev E., Mehrəliyev İ.(2012) "Gömrük işinin təşkili". Bakı- Kooperasiya nəşriyyatı. 400 səh.
13. Məmmədov F., Musayev A., Sadıqov M., Kəlbiyev Y., Rzayev Z. (2010). "Vergilər və vergitutma". Ali məktəblər üçün dərslik. Bakı. 512 səh.
14. Nuriyev C.Q. (2007). "Gömrük etikası". Dərs vəsaiti. Bakı. Əbilov, Zeynalov və oğulları. 247 səh
15. Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C.. (2009). "Gömrük işinin təşkili və idarə edilməsi". Ali məktəblər üçün dərslik (yenidən işlənmiş və tamamlanmış variantda). Bakı. 293 səh.
16. Rzayev E. (2019). "Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsində gömrük siyasətinin əhəmiyyəti". ADİU, Bakı. 91 səh.
17. S.Ağayev, S.Hüseynov. "Azərbaycanda gömrük tarif siyasətinin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi". Bakı. Azərbaycan Universiteti. İpək yolu. (2021). No.1. səh 5-24.
18. Sadıqov T.Ə., Rzayev İ.M. (2014). "Vergi uçotu və auditi". Bakı. "Elm" nəşriyyatı. 556 səh

19. Şəkərəliyev A. "Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın tənətənəsi. Bakı, İqtisad Universiteti 2011 542 səh.

20. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə., Şəkərəliyeva Z.A. (2018). "Gömrük işinin təşkili və idarə edilməsi". Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 292 səh.

21. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. (2015). "Gömrük işinin təşkili və idarə edilməsi". Dərs vəsaiti. Bakı. "İqtisad Universiteti" Nəşriyyatı. 168 səh.

22. Vəliyeva G.M. (2020) "Gömrük orqanlarinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi" SDU. Magistrantların XX Respublika Elmi konfransı materialları. №1/II. səh 252-254

## Rus dilində

1. Новиков М.В., Землянская С.В., "Система тарифных преференций Таможенного союза", Вестник Волгоградского университета. Серия 3. Экономика. Экология. (2013). № 1 (22). с. 223–228.

2. Зведре, Е. К. Глобальная система таможенного контроля и международный кодекс поведения Москва. Журнал Таможни//. (2014). № 7. с. 18-25.

## İngilis dilində

1. World Trade Report 2015. https://www.wto.org/english/res_e/booksp_e/world_trade_report15_e.pdf

2. Matsushita M., Schoenbaum T.J., Mavroidis P.C., Hahn M. (2015). "The World Trade Organization". Oxford International Law Library. 944 p.

## İnternet resursları

1. http://anl.az/down/meqale/azerbaycan/2010/may/118515.htm 2010
2. http://customs.gov.az/az/komite/gomruk-orqanlari 2019
3. http://www.e-qanun.az/framework/15605 2008
4. http://www.e-qanun.az/framework/32855 2016

5. http://www.yap.org.az/az/view/interview/615/musteqil-azerbaycan-sabitlik-ve-inkishaf-yolu-ile-inamla-irelileyir 2018
6. https://azvision.az/news/198741/-budceye-2-milyard-manat-artiq-vesait-kocurulub--sefer-mehdiyev---.html 2019
7. https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/ 2021
8. https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/2020
9. https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda/ 2021
10. https://customs.gov.az/az/faydali/xeberler/1352_/ 2016
11. https://customs.gov.az/az/faydali/xeberler/3285_/ 2019
12. https://customs.gov.az/az/faydali/xeberler/3411_/ 2019
13. https://customs.gov.az/az/faydali/xeberler/3975_// 2019
14. https://customs.gov.az/az/faydali/xeberler/4363_/ 2020
15. https://customs.gov.az/az/xeberler/2261_/ 2017
16. https://customs.gov.az/az/komite/aparatin-strukturu/ 2020
17. https://customs.gov.az/modules/law/lawfolder/6/FILE_4A54FF-4195BE-D638DA-AA4392-FDB8B5-14246A.pdf 2005
18. https://customs.gov.az/modules/pdf/pdffolder/93/FILE_E7B3B9-B46FB9-AA0331-12CB1C-A0451C-E46BD4.pdf 2021
19. https://shturmpro.ru/az/medicina-i-sport/vyezdnaya-tamozhennaya-proverka-provoditsya-na-osnovanii.html 2020
20. https://static.president.az/pdf/38542.pdf 2016
21. https://www.stat.gov.az/source/trade/ 2021
22. https://www.taxes.gov.az/az/post/326 2012
23. https://www.taxes.gov.az/uploads/2017/PV_new/aksizler.pdf 2017

## Cədvəllərin siyahısı

Cədvəl 1: Gömrük rüsumlarının dövlət büdcə daxilolmalarında həcminin dinamikası.mln.manat..........................................................................................42
Cədvəl 2: 2016-2020-ci illər ərzində büdcə daxilolmaları (min AZN) ..................44
Cədvəl 3: Aşkar edilmiş cinayət xarakterli faktlar……...........................................56
Cədvəl 4: Aşkar edilmiş inzibati xəta faktları.........................................................56

## Şəkillərin siyahısı

Şəkil 1: GK-nin strukturuna daxil olan orqanların görünüşü.................................29
Şəkil 2: Azərbaycan Respublikası DGK- təşkilati strukturu...................................31
Şəkil 3: Gömrük nəzarətinin-gömrük yoxlamasının formaları................................37

## Qrafiklərin siyahısı

Diaqram 1: Azərbaycan Respublikası 2016-2020 ci illər ərzində xarici ticarət dövriyyəsi mlrd.ABŞ dollar.........................................................................................43
Diaqram 2: Azərbaycan Respublikası 2016-2020 ci illər idxal-ixrac dinamikası mlrd.ABŞ dollar....................................................................................................43
Diaqram 3: Azərbaycan Respublikası 2016-2020 ci illər xarici ticarət saldosu mlrd.ABŞ dollar....................................................................................................44
Diaqram4: Gömrük ödənişləri statistikası mlrd.AZN............................................44
Diaqram 5: Azərbaycan Respublikasında Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi üzrə dövlət büdcəsinə daxilolmaların həcminin nisbət ilə dinamikası....45